MÜNDƏRİCAT

3
İBRAHİM ƏLİYEV:
SSRİ-NİN İFLASININ SƏBƏB VƏ NƏTİCƏLƏRİ HAQQINDA

8
АЛИАГА МАМЕДЛИ: О ВЛИЯНИИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ ФАКТОРОВ НА СОСТОЯНИЕ МЕЖЭТНИЧЕСКИХ ОТНОШЕНИЙ И КОНФЛИКТОВ НА ПОСТСОВЕТСКОМ ПРОСТРАНСТВ



13
ВАДИМ МИХАЙЛОВ: ОКТЯБРЬСКИЙ ПЕРЕВОРОТ И УСТАНОВЛЕНИЕ ДВОЕВЛАСТИЯ В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ 1917 – НАЧАЛЕ 1918 гг.

19
ТОФИГ НАДЖАФЛИ: О ФЛАГАХ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА СЕФЕВИДОВ

25
XALİD NİYAZOV:
MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ VƏ AZƏRBAYCAN

30
RUFİZ QONAQOV: XƏZƏR HÖVZƏSİNİN GEOİQTİSADİ XARAKTERİSTİKASINA SİYASİ NƏZƏRİ BAXIŞ

34
МАМЕДАЛИ ФАРУХОВ: ВОЕННО-СИЛОВАЯ СОСТАВЛЯЮЩАЯ ГЕОПОЛИТИЧЕСКОГО АСПЕКТА НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

38
BƏXTİYAR NƏBİYEV: GEOSİYASİ TƏDQİQATLARDA NƏZƏRİ MÜHAKİMƏLƏRİN QURULMA METODOLOGİYASI

42
ALI BALAYEV: AZƏRBAYCAN-MOLDOVA ƏLAQƏLƏRİ: YÜKSƏK SƏVİYYƏLİ DOSTLUQ VƏ ƏMƏKDAŞLIQ MÜNASİBƏTLƏRİNƏ DOĞRU

46 ANAR ÖMƏROV: OSMANLI, PORTUQALİYA VƏ SƏFƏVİ MÜNASİBƏTLƏRİNDƏ HÖRMÜZ MƏSƏLƏSİ

50 ELMAN CƏFƏRLİ: TACİKİSTAN RESPUBLİKASININ DAĞLIQ BƏDƏXŞAN MUXTAR VİLAYƏTİ

55 BƏXTİYAR ƏHMƏDOV: GÖYÇƏ MAHALINDA YAŞAYAN AZƏRBAYCANLILARIN DİSKRİMİNASİYASI VƏ 1988-1989-CU İLLƏR DEPORTASİYASI

59 ELŞƏN ASLANOV: BAKI XALQ KOMİSSARLARI SOVETİNİN TARİXİ XARİCİ TARİXŞÜNASLIQDA

62 HACI ABDULLA: ŞİMALİ AZƏRBAYCANIN ZƏNGƏZUR BÖLGƏSİNİN ERMƏNİSTANA BİRLƏŞDİRİLMƏSİ BÖYÜK DÖVLƏTLƏRİN VƏ QONŞU ÖLKƏLƏRİN QAFQAZ SİYASƏTİNDƏ

66 RASİM ABBASOV: AZƏRBAYCANDA DEMOQRAFİK VƏZİYYƏT NƏZƏRƏ ALIN-MAQLA İDXALIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN QANUNVERİCİLİK BAZASININ GÜCLƏNDİRİLMƏSİ VƏ PRİORİTET İSTİQAMƏTLƏRİ

72 БАЯЗ АБДУЛЛАЕВА: ПУТИ СОВЕРШЕНСТВОВАНИЯ СИСТЕМЫ ВНУТРЕННЕГО АУДИТА НА ПРЕДПРИЯТИЯХ НЕФТЕХИМИЧЕСКОГО КОМПЛЕКСА

74 КЯМИЛЯ ДЖАББАРОВА: ВАЖНЫЕ НАПРАВЛЕНИИ И ЭЛЕМЕНТОВ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ ПО КИБЕРБЕЗОПАСНОСТИ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

69 YAŞAR İSKƏNDƏROV: MÜASİR DÖVRDƏ TİKİNTİ MATERİALLARI BAZARINDA KOMMERSİYA MÜNASİBƏTLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

GEO STRATEGİYA

Təsisçi:
“Kaspi” Geosiyasi Araşdırmalar Mərkəzi

Baş redaktor:
Əli Həsənov
Redaktor:
İbrahim Əliyev
Redaktor müavini:
İsmayıl Qasımov

Korrektor:
Leyla Binyatova

Dizayner:
İman Hüseynov

Redaksiya heyəti:

Əli Həsənov
Mübariz Qurbanlı
Səlahəddin Xəlilov
Rüstəm Məmmədov
Rasim Musabəyov
Çingiz İsmayılov
Musa Qasımlı
İbrahim Əliyev
Ərəstun Mehdiyev
Cəfər Cəfərov
Elman Nəsirov
Hikmət Məmmədov
Elçin Əhmədov

Ünvan:
Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.
Tel: (+994 12) 537 16 05
Faks: (+994 12) 537 16 05
E-poçt:
geostrategiya.az@mail.ru
strategiya.az@mail.ru

“Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunmuşdur.

Sifariş № 1279

Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.

“GEOSTRATEGİYA” jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların
Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

Tarix

İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

SSRİ-NİN İFLASININ SƏBƏB VƏ NƏTİCƏLƏRİ HAQQINDA

XX əsrin 80-ci illəri dünyanın yarısından çox ərazisini və əhalisini əhatə edən sosializm sisteminin və onun başlıca mərkəzi olan sovetlər ittifaqının mövcudluğunun sonuncu onilliyi kimi tarixə daxil oldu. Hələ əsrin əvvəlindən ictimai-iqtisadi sistem kimi, meydana gələn sovet sosialist sistemi mövcud olduğu 70 ildən artıq bir dövrdə ziddiyyətli və ziddiyyətli həyat yaşamış, son məqamda kapitalizm dünyası ilə ölüm-dirim müharibəsində məğlub olaraq iflasa uğrasa da bir nəzəri praktik platforma olaraq öz əhəmiyyətini qoruyub saxlamışdır. İflasdan sonrakı dövrün tarixi göstərir ki, bəşəriyyət sosializm təlimindən tam imtina edə bilmir, zaman-zaman bu nəzəriyyəyə və onu praktik tarixinə müraciətlər, onun ətrafında aparılan diskusiyalar onun birmənalı inkarının olmadığını sübut edir. SSRİ-nin dağılması, sosializm dünyasının kapitalist dünyası ilə uzun illər boyu davam edən "soyuq müharibədə" məğlub olaraq iflas etməsinə münasibət bu gün müxtəlifdir. Onun nəticələri dövlətlərin fərdi maraqlarından asılı olaraq fərqli dəyəndirilir. Lakin zaman keçdikcə həmin hadisə və proseslərə adekvat qiymət verilməsi, nəticələrin düzgün qiymətləndirilməsi təkcə tarixi ədalətin təsdiqi xatirinə deyil, həm də dünyada müasir dövrdə gedən proseslərə təsiri baxımından vacibdir.

Qeyd etmək lazımdır ki, sosializm nəzəriyyəsi kiminsə uydurması deyildir və onun meydana çıxması bəşəriyyətin sosial ədalət axtarışlarının nəticəsi idi. Onu bir nəfərin, bir siyasi cərəyanın, bir fəlsəfi bünövrənin adı ilə bağlamaq düzgün olmazdı. İnsanlığın can atdığı sosial ədalət cəmiyyətinə çatmaq fikrinə hər teoretik və ya fəlsəfi cərəyan özünəməxsus şəkildə yanaşır və özünəməxsus həllini təklif edir. Onların hər birinin mənfi və müsbət, zəif və güclü cəhətləri vardır ki, onlar da özlərini praktikada tətbiq olunduqları zaman əyahi şəkildə büruzə verir, prosesin gedişinə müvafiq şəkildə təsir göstərir. Bu mənada belə bir dövlətin və onun malik olduğu ictimai-iqtisadi sistemin iflası da çoxmənalıdır.

Tədqiqatçıların müxtəlif səpkili əsərlərində SSRİ-nin iflasına münasibət, bu hadisənin baş verməsinin müsbət və ya mənfi cəhətdən dəyərlənməsi də bir birini əvəz edir.

SSRİ-nin iflası nə dərəcədə tarixi inkişafın qanunauyğun gedişinin nəticəsi idi və ya burada subyektiv amillər nə dərəcədə həlledici rol oynayır. Bu suallara dəqiq cavabın olmadığı kimi onun birmənalı dəyərləndirilməsi də bu vaxta qədər mümkün olmamışdır.

SSRİ-nin dağılması onun tərkibinə daxil olan millətlərin həyatında fərqli nəticələrə gətirib çıxarmışdır. Müstəqillik əldə etmək hər bir xalqın arzusudur. Lakin bu məqsədə yetməyin reallığından asılı olaraq onun arzuolunan və qüsurlu, tam və ya yarımçıq, vaxtında və ya əlverişsiz məqamda və vəziyyətdə əldə olunması mühüm əhəmiyyət kəsb edir.

SSRİ doğrudandamı xalqlar üçün həbsxana və onları əsarətdə saxlayan imperiya idi. Doğrudanmı 70 ildən artıq bir dövrdə aparılan siyasət ancaq bədbəxtlik gətirmişdi və istənilən qiymətə bu imperiyanın dağıdılması və onun ərazisindəki xalqların müstəqil dövlətlərə çevrilməsi yeganə ədalətli çıxış yolu idi?!

Dünyada millətlərarası münasibətlər sahəsində iki istiqamətdə proseslər gedir. Onlardan birincisi hər bir xalqın və millətin can atdığı milli müstəqillik, müstəqil dövlətin yaradılması, milli maraqların təmin edilməsidir. ikincisi xalqlarin və millətlərin yaxinlaşması, ümumi sosial-iqtisadi, mədəni məkanın formalaşması, qloballaşma nəticəsində dünyanın bütövləşməsi və bütün insanların maraqlarının təmin olunduğu hüquqi, mənəvi mühitin bərqərar olmasıdır. Bu zaman ictimai quruluşundan, dil, din, irq, mədəni mənsubiyyətindən asılı olmayaraq maraqlar ümumiləşir və onların

nəzərə alınması aktuallıq kəsb edir.

Bununla yanaşı bütövləşən dünyada hegemonluq uğrunda mübarizə münaqişə ocaqlarının yaranmasına gətirib çıxarır. Buna görə də hər bir xalqın maraqlarının təmin edilməsi nəinki özü-özlüyündə baş vermir, əksinə onun üçün müasir ictimai-siyasi durumda gərgin mübarizə aparmaq lazım gəlir. Qloballaşma yer üzərində yaşayan bütün insanların hüquq və haqqlarının vahid müstəviyə çıxarılması ilə yanaşı, onların həlli üçün ümumi norma və prinsiplərin formalaşması çətin mübarizə şəraitində baş verir.

Sovet dövlətinin yaranmasından əvvəl ədalətli cəmiyyətin yaradılması üçün işlənib hazırlanmış nəzəri platforma və prinsiplər olduğu kimi reallaşa bilməmişdi. Nəzəri cəhətdən ideal olan postulatlar həyata tətbiq edilməsi anında dəyişir. Ayrı-ayrı maraqlar üzündən başlanğıc dəyərlərdən uzaqlaşır. Digər tərəfdən nəzəriyyənin özünün çatışmayan cəhətləri, habelə ayrı-ayrı rəhbərlərin səhvləri, şəxşi mövqeyindən və maraqlarından irəli gələn məqsədyönlü hərəkətləri, bu və ya digər prinsipial məsələlərə şəxsi baxışları vəziyyətə əsaslı şəkildfə təsir edir.

Müasir dövrdə mübahisə doğuran məsələlərdən biri SSRİ-nin iflasının səbəbləridirr. Bu mənada fikirlər parçalanır. Bir sıra mütəxəssislər və tədqiqatçılar hesab edirlər ki, sosializmin imkanları 1980-cı illərə artıq tükənmişdi və edilən cəhdlərə baxmayaraq onun iflasının qarşısını almaq mümkün deyildi. Yanlış nəzəri müddəaların üzərində qurulmuş cəmiyyət tarixi inkişafın məntiqi nəticəsi olaraq, iflasa məhkum idi ki, bu da baş verdi. (1,2,3,4,7,10)

Xeyli müəlliflər bu fikirlə tamamilə razılaşmır, hesab edirlər ki, ölkədə hakimiyyətə gətirilən güvvələr xarici dövlətlərin aktiv dəstəyi ilə SSRİ-ni uçuruma aparmışlar. Onlar faktlar və rəqəmlərin dili ilə sübut etməyə çalışırlar ki, bu iflas SSRİ-yə və sosializmə qarşı yönəlmiş qlobal bir planın nəticəsi idi. Onların fikrincə, M.Qorbaçov öz komandası ilə hakimiyyətə gələrək Qərbin təxribat planını həytata keçirmiş, xilas edilməsi mümkün olan SSRİ-ni və sosializm dünyasını məhvə qovuşdurmuşlar. (5,10,11)

Hər iki nəzər nöqtəsinin kifayət qədər dəlilləri vardır. Bu vaxta qədər aparılmış tədqiqatlar sübut edir ki, reallığa adekvat olan nəticələr əldə etmək üçün ətraflı araşdırmaların aparılmasına böyük ehtiyac vardır. Çünki hər iki mövqedə həqiqətəuyğun məqamlar kifayət qədər çoxdur.

Hər şeydən öncə ondan başlamaq lazımdır ki, sovet dövlətinin təməlində dayanan sosializm nəzəriyyəsi heç də qüsursuz deyildir. Bu təbii bir haldır. Onların çatışmayan cəhətləri zaman keçdikcə və praktikada həyata tətbiq edildikcə cilalanmalı və korrektə edilməli idi. Bu cür çatışmayan cəhətlərin təhlükəsi də o qədər böyük deyildir. Belə ki, məqsədlər düzgün olduqda onun reallaşması yolunda da ziddiyyətlər həllolunan olmalıdır. Bütövlükdə insan cəmiyyətinin daim tarazlığa və ədalətli duruma can atması onun inkişaf səviyyəsindən asılı olaraq başlıca məcranı təmin edir. Bugünkü durum müasir mərhələdə bəşəriyyətin inkişafının real vəziyyəti ilə şərtlənir.

Sosializm təlimində demək olar ki bütün müddəalar ilk baxışda ədalətli xarakter daşıyır. Çatışmazlıqlar ifrat anlamlar və yanlış təsəvvürlərlə bağlıdır ki, onlar da praktik mərhələdə çox tezliklə özünü büruzə verir. 1980-ci illərin əvvəllərində sovet dövlətinin ictmai-siyasi, iqtisadi və mədəni həyarında kök salmış böhran açıq şəkildə etiraf edilməyə başladı. Hakimiyyət yükünü çiyninə götürən yeni hakimiyyət mövcud problemləri etiraf etmədən fəaliyyət göstərə bilməzdi. Yeni dövrdə ölkəni böhranın məngənəsindən xilas edilməsi ciddi islahatlar tələb edirdi.

Sovet dövlətinin malik olduğu tarix ərzində ictimai həyatım müxtəlif sahələrində millətlərin məruz qaldığı ayrıseçkilik və ədalətsizliklər bu dövlətin köklü dəyişikliklərə ehtiyacını zəruri edirdi. Lakin ölkədə neqativ tendensiyalar nəinki aradan qalxmır, ölkə həyatında müşahidə edilən problemlərin dərinləşməsi şəraitində daha da güclənirdi. Sovet dövlətinin milli respublikalar, o cümlədəın Azərbaycan üçün mənfi və müsbət cəhətləri aşkar idi. Mənfi cəhətlər bir tərəfdən cəmiyyətin söykəndiyi nəzəri əsaslardan və bütövlükdə sovet cəmiyyəti üçün xarakterik olan neqativ meyyllərdən irəli gəlirdisə, digər tətəfdən subyektiv amillərdən qaynaqlanırdı. Zaman keçdikcə sovet cəmiyyətinin ictimai həyatının bütün sahələrində mövcud olan problemlər və əyintilər bu çatışmazlığı daha da dərinləşdirir və daha bəlalı proseslərə yol açırdı. Bu münasibətlər repressiyalarda, milli kadrların idarəçilik sisteminə buraxılmamasında, respublikaların maliyyələşdirilməsində və çoxsaylı digər məqamlarda açıq-aşkar şəkildə görünürdü.

Sovet dövlətinin iflasının səbəblərindən danışarkən bu amillərə də diqqət yönəltmək vacibdir. Milli əyalətlər üçün nə daha məqbul idi: Sovet dövlətinin dağılması və nəyin bahasına olursa-olsun millətlərin öz müstəqilliyinə qovuşması və ya sovet cəmiyyətinin mahiyyətində olan neqativ cəhətlərin, ədalətsiz prinsiplərin, qərəzli siyasət praktikasının aradan qaldırılması, bu dövlətin bütün hüquqi sənədlərində bəyan olunmuş humanist prinsiplərə uyğun vəziyyətə gətirilməsi, o cümlədən xalqların öz müqəddəratını təyin etmək hüququnun real olaraq təmin edilməsi.

Deyilənləri ümumiləşdirərək, Sovet dövlətinin 1980-ci illərdə iflasını şərtləndirən başlıca amillər kimi aşağıdakı məqamları göstərmək olar:

- Sosializm nəzəriyyəsinin əsasında duran bir sıra prinsiplərin mütləqləşdirilməsi: xüsusi mülkiyyətin tam inkarı, maddi maraq prinsipinin nəzərə alınmaması, iqtisadi münasibətlər sisteminin qanunlarının rədd edilərək qondarma prinsiplərin tətbiqi, cəmiyyətin parçalandırılaraq proletariatın simasında bir sinifin başqaları üzərində fövqəlqüvvə kimi qəbul edilməsi – bütün bu yanlış müddəalardan sovet hakimiyyətinin ilk illərində Yeni İqtisadi Siyasət kursunun yeridilməsi zamanı imtina edilmişdisə də, sonradan onlar tam gücü ilə cəmiyyətə zorla qəbul edildi. Belə bir münasibətin üzərində təşəkkül tapmış totalitar ictimai-iqtisadi, sisyasi ideoloji sistem sovet dövlətinin və ondan sonra onun nümunəsi əsasında yaranmış sosializm düşərgəsi dövlətlərinin zəifləməsi və çökməsi üçün münbit şərait yaratdı.
- Sovet dövləti çoxmillətli bir dövlət olataq bu keyfiyyəti

Rusiya imperiyasından irsən qəbul etmişdi. Bəyan olunmuş internasionalist prinsiplərin və təbliğatın ziddinə olaraq sovet dövləti imperiya Rusiyasının millətlərə münasibətdə yeritdiyi siyasəti cüzi dəyişikliklərlə davam etdirirdi. Partiya və dövlət sənədlərində milli məsələnin bütün ziddiyyətlərinin həll olunduğu iddia edilsə də, sonrakı tarix bunun əksini əyani şəkildə sübut etdi. Millətlərarası münasibətlərdə mövcud olan ziddiyyətlər böhran zamanında daha qabarıq şəkildə üzə çıxaraq, münaqişələr üçün zəmin yaradırdı. Digər tərəfdən sovet cəmiyyətinin dağılma anında maraqlı qüvvələr həmin amildən geniş şəkildə istifadə edirdi. Milli münaqişələr obyektiv səbəblərlə yanaşı daha çox subyektiv səbəblərlə bağlı olmuşdar. Cəmiyyətin həyatının ən həssas məsələlərindən biri olan milli-etnik münasibətlər regional münaqişələrin alovlandırılmasında geniş istifadə olunmuşdur. Bu səbəbdən də potensial olaraq milli narazılıqlar özəklərinin qorunub saxlanması sosializmin mahiyyətindən deyil, imperiya maraqlarından qaynaqlanırdı.

- İqtisadi münasibətlər sistemində olan yarımçıqlıq, obyektiv iqtisadi qanunların nəzərə alınmaması və tez-tez pozulması bir tərəfdən iqtisadi inkişafın məntiqini pozması ilə yanaşı bu sahədə neqativ tendensiyaların güclənməsinə, cəmiyyət üçün bəlalı nəticələrə gətirib çıxaran amillərə çevrilmişdir. İdarə edilməsi günbəgün çətinləşən, inkişafı ləngidən, çeviklikdən uzaq mərkəzləşmiş sovet idarəetmə sistemi zaman keçdikcə daha ağır vəziyyətə düşür, günbəgün atran neqativ hallar, korrupsiya, talançılıq və s. ölkənin ictimai-iqtisadi həyatında ağır problemlərə yol açırdı.

- Daxili problemlərlə yanaşı ölkənin maddi durumuna, təsir edən xarici amillər öz sözünü deyirdi. Onların sırasına yarandığı gündən kapitalizm dünyası ilə aparılan düşmənçilik, dünya sosializm hərəkatına sərf olunan nəhəng vəsaitlər, silahlanmaya ayrılan potensial, dünyanın hər yerində permanent inqilablar ideyasını həyata keçirmək üçün sərf olunan güc, vəsait onu zəiflədən amillərdən idi. Xüsusən də İkinci dünya müharibəsindən sonra xarici təsir daha da artmış, dövlətin potensialının böyük hissəsinin öna yönəlməsinə səbəb olmuşdu. Soyuq müharibə, silahlanma yarışı ölkənin malik olduğu resursların ən çox hissəsini özünə cəlb etməklə böyük problemlər yaradırdı.(6,8,9, 10,12,13)

İkinci dünya müharibəsindən sonra hakimimiyyətdə baş verən Stalin rejimindən uzaqlaşma və yumşalma bir tərəfdən demokratiyanın güclənməsinə, repressiyaların azalmasına səbəb olurdusa, digər tərəfdən neqativ meyillərin artmasına şərait yaradırdı. Bu neqativ meyyilər artıq 1970-80-ci illərdə ictimai həyatın müxtəlif sahələrində ciddi problemlərin yaranmasına gətirib çıxardı. Ölkədə bir sıra islahatların keçirilməsinə cəhdlər edilsə də, onlar hər dəfə yarımçıq qalmış, vəziyyətin daha da ağırlaşmasına səbəb olmuşdu. 1960-80-ci illərində qarşısı alınmayan və günbəgün dərinləşən neqativ meyillər ölkənin həyatının bütün sahələrində böhranın dərinləşməsinə gətirib çıxardı. Gurultulu ideoloji təbliğat ictimai-iqtisadi həyatda baş alıb gedən problemlərin qarşısını almaq iqtidarında deyildi.

1982-ci ildə Leonid Brejnevin ölümü mövcud problemlərin bütün çılpaqlığı ilə ortaya qoyulmasına və etiraf edilməsinə səbəb oldu. Bu vaxta qədərki reallıqlar müxtəlif yollarla ört-basdır edilirdi, lakin bu işlərin başında dayanın Baş katibin ölümü cəmiyyəti, dövləti və hakim partiyanı ağır faktla üz-üzə qoydu. Hakimiyyətə gələn yeni şəxslər bu vaxta qədər yığılıb qalmış problemlərin altına köhnə qaydada girmək istəmirdi. Onlar mövcud vəziyyəti qeyd edərək öz başlanğıc nöqtələrini müəyyənləşdirməyə məcbur idilər. Yalanın limiti artıq çoxdan qurtarmışdı. Buna görə də problemlər açıq şəkildə etiraf edilməli, onların həlli üçün ciddi addımlar atılmalı, geniş islahatlar aparılmalı idi. Burada yarımçıq işlərdən söhbət gedə bilməzdi. Ölkə iki yolayrıcında dayanmışdı. Dövlətin və cəmiyyətin hayatında olan əyriliklərə son qoyulmalı, sosializmin bünövrəsində dayanan prinsiplərin düzgün işlədilməsinə qayıdılmalı, iqtisadiyyatda hərcmərcliyin, özbaşınalığın, talanın, korrupsiyanın qarşısı alınmalı, həqiqətən sosial ədalətli rejimin bərqərar olunmasına nail olunmalı, millətlərin hüquqlar, tam təmin edilməli və ayrı-seçkilik siyasətinə son qoyulmalı idi. Əks halda SSRİ-nin iflası, sosializm düşərgəsinin dağılması labüd idi.



İkinci variant daha çox şansa malik idi. Uzun illər boyu ölkənin həyatının bütün sahələrini bürümüş neqativ reallıqlar cəmiyyətin içərisində özünün tərəfdarları ordusunu yaratmış, zəhmətkeş əhalinin inamını qırmış, ölkədə dövlətin və sosializm quruluşunun taleyinə biganəlik kök salmışdı. Yeni hakimiyyətdən isə məhz həmin problemlərin aradan qaldırılması, sözü ilə yeritdiyi siyasətin üst-üstə düşən bir hakimiyyətin yaradılması tələb olunurdu.

Sovetlər ittifaqının başlıca problemi həyati resursların çatışmazlığı deyildi. Ölkənin maddi ehtiyatları kifayət qədər böyük idi və dünyanın ən varlı ölkəsi ilə rəqabət apara bilərdi. Başlıca problem siyasi hakimiyyətin aşınmasında, iqtisadi münasibətlərin ciddi pozuntularında, idarəetmənin şişərək ağırlaşması və çevikliyini itirməsində, ölkədə korrupsiyanın və digər neqativ bəlaların kök salmasında idi. Bu cəhətlər gücləndikcə ölkənin üzərində dayandığı mənəvi durum da sarsılır, cəmiyyətin bütün kateqoriyalarında inamsızlıq, biganəlik, nihilizm dərinləşirdi. Cəmiyyət iqtisadi, siyasi, mənəvi, ideoloji böhran yaşayırdı.

Sovet cəmiyyəti və ona daxil olan bütün sosial təbəqələr və millətlərin heç də hamısı bu dövlətin və sosializm sisteminin dağılmasını istəmirdi. Əhali vəziyyətin düzəlməsinə ümid edirdi. Rasional addımları dəstəkləyirdi. Çünki mövcud rejimin iflası və sovetlər birliyinin dağılması çoxsaylı müsbət meyillərə də yol açsa da, o, ilk növbədə fəlakətlərə, toqquşmalara, milli münaqişələrə, kataklizmlərə gətirib çıxarırdı. Son məqamda millətlər öz müstəqilliklərinə qovuşsalar da, bu çox baha başa gəlirdi. Sadə insanların gərgin əməyi nəticəsində əldə edilmiş nailiyyətlərin itirilməsi, ölkənin sərvətlərinin qısa müddətdə talan edilməsi yolu ilə başa gəlirdi. Buna görə də sovetlər dövlətinin sivil yolla ədalətli sonluğa qovuşması daha arzuolunan nəticə ola bilərdi.

1982-ci ildə SSRİ-yə rəhbərliyin ağırlığını öz üzərinə götürmüş Yuri Andropov və onun komandası deyilən istiqamətdə islahatlara başladılar. İlk növbədə ölkədə neqativ meyillərin qarşısını almaq, korrupsiya və rüşvətxorluğa son qoymaq, ölkədə əmək intizamına nail olmaq, qanunçuluğu möhkəmləndirmək istiqamətində fəaliyyət həyata keçirilməyə başlandı. Həmin ildə Sov.İKP MK Siyasi Bürosuna üzv qəbul olunmuş Heydər Əliyev də həmin komandanın başlıca fiqurlarından biri olmaqla həmin siyasətin yeridilməsində müstəsna rol oynayırdı. Bu zaman onun 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlişindən sonra apardığı siyasət, ictimai həyatın bütün sahələrində qısa müddətdə əldə etdiyi nailiyyətlər, xüsusən respublikada hərc-mərcliyə son qoyulması, korrupsiya və rüşvətxorluqla mübarizədə qazandığı uğurlar və müsbət təcrübə sovetlər ölkəsinin ali rəhbərliyi üçün qiymətli idi. Onun belə bir çətin vaxtda mərkəzi hakimiyyətə cəlb edilməsi və ona ictimai-siyasi həyatın ən mürəkkəb sahələrinə kurasiya vəzifəsinin həvalə edilməsi səbəblərində biri də məhz onun şəxsi keyfiyyətləri və zəngin təcrübəsi olmuşdu.

Heydər Əliyevin də daxil olduğu komandanın SSRİ-ni islah etmək, onu neqativ cəhətlərdən təmizləmək, sözün tam mənasında əbalətli quruluşa və mahiyyətə malik, bütün millətlərə ayrı-seçkilik qoyulmadan maksimum inkişaf şəraitinin yaradıldığı, vətəndaşların haqqlarının tam təmin olunduğu mühitin yaratmaq iradəsi onların atdığı addımlarda, qəbul etdikləri strateji sənədlərdə özünü büruzə verirdi. Y.Andropovun Baş katib olduğu dövr problemlərin birbaşa qoyulması və onların radikal həllinə yönəlmiş islahatlarla fərqlənir. Bu təkcə hakim kommunist partiyasının götürdüyü kursda deyil, cəmiyyətin özündə gedən canlanmada hiss olunurdu. Düzdür, məsələlərin sərt qoyuluşu, ciddi yoxlamalar, məhdudiyyətlərin tətbiqi insanların həyatında müəyyən çətinliklər yaratsa da, cəmiyyət onu dəstəkləyirdi. İnsanlar uzun illər davam edən pozuntuların və neqativ halların aradan qaldırılmasına ümid edir, çətinliklərər və qoyulmuş qadağalara başa düşməklə yanaşır, rəğbətlə qarşılayırdılar.

Lakin Y.Andropovun ölümü başlanmış işlərin yarımçıq qalmasına səbəb oldu. Hakimiyyətə gətirilmiş K.Çernenkonun dövründə yadda qalan məqam ondan əvvəl başlanmış islahatların dondurulması və Brejnev dövrünə uyğun mühitin bərpası oldu. Nəhayət, 1985-ci ilin martında M. Qorbaçovun Baş katib postuna yüksəldilməsi ilə SSRİ-nin iflasına son təkan verilmiş oldu.

Biz bu vaxta qədər ancaq daxili amil üzərində dayandıq. Nəhəng bir imperiyanın iflası üçün yaranmış zəmini qeyd etdik. Lakin bu prosesdə xarici amilin rolu kifayət qədər böyükdür. Bu mübarizə Sovet dövlətinin tarix səhnəsinə çıxmasının ilk günündən onunla ölüm-dirim müharibəsinə başlayan kapital dünyası onu son ana kimi aparmış, müxtəliv vasitələrdən istifadə etmişdir. Bu mübarizə müxtəlif dövrlərdə müxtəlif formalarda aparılmışdır Bu müharibədə hər bir amildən, o cümlədən sovet dövlətinin və digər sosialist dövlətlərinin daxili problemlərindən geniş istifadə etmişlər. Sovet dövlətinin gücündən və potensialından, əhalinin əzmindən asılı olaraq nəticələr də ona uyğun olmuşdur. Məsələn, İkinci dünya müharibəsində sovetlər dövlətini nəinki məğlub etmək mümkün olmadı, o, bu müharibədən daha da möhkəmlənmiş halda çıxdı, sosializm bir ölkə çərçivəsindən çıxaraq dünya miqyaslı düşərgəyə çevrildi. İki dünya düşərgəsinin müharibəsinin yeni fazası İkinci dünya müharibəsindən sonra "soyuq müharibə" adı ilə davam edərək 1980-ci illərin axırına kimi davam etmiş, sosializm düşərgəsinin və onun lider dövləti olan SSRİ-nin iflası ilə başa çatmışdır.

Sovet dövlətinin bütün tarixi dövründə onun daha ağır vaxtları olmuşdu. Lakin o zaman xarici təzyiqlərin qarşısı alınmış, SSRİ-nin bütün dünya hegemonluğu uğrunda mübarizədə yüksək mövqeyi təmin edilmişdi. Lakin sonradan dövlətin daxilində gedən neqativ proseslər onu içəridən zəiflətdikcə xarici təzyiq daha çox təsirə malik olmuşdur.

K.Çernenkonun dövründə islahatların dayandırılması ilə SSRİ-ni xilas etməyin sonuncu cəhdi iflasa uğradı. Ondan sonra gedən proseslər iflas prosesini sürətləndirdi. "Perestroyka" adı altında atılan addımlar dövləti xilas etmək iqtidarında deyildi. Görülən işlərin ziddiyyətliliyi, hər bir növbəti addımın özündən əvvəlkini inkar etməsi quruculuqdan daha çox dağıdıcılığa xidmət etdiyini əyani şəkildə büruzə verirdi. İctimai həyatın bütün sahələrində həyata keçirilən tədbirlər qeyri-ardıcıl olduğundan, bir-birini tamamlamadığından ölkədəki ictimai-iqtisadi durumu xaosa yaxınlaşdırırdı. İdarəetmənin məntiqi artıq itirilmişdi. Əhali

kütlələrinin inamından və dəstəyindən günbəgün uzaq düşən siyasi hakimiyyətin hər bir sahədə atdığı addımlar dövlətin süqutunu yaxınlaşdırırdı.

SSRİ-də yaranmış ictimai-iqtisadi, siyasi və mənəvi böhran sosializm düşərgəsinin digər dövlətlərində özünəməxsus şəkildə əks olunur, onlarda mövcud rejimə qarşı kitləvi hərəkatın genişlənməsinə səbəb olurdu.

SSRİ-nin milli respublikalarında da yaranmış böhran fərqli effekt doğururdu. Baltikyanı ölkələrdə SSRİ-dən ayrılmaq uğrunda başlamış hərəkat Qərbin dəstəyi və fəal müdaxiləsi sayəsində daha güclü təsir bağışlayırdı. Bütövlükdə isə milli münaqişə ocaqlarının alovlandırılması, milli zəmində törədilən təxribatlar, yeni ittifaq müqaviləsi ətrafında avantürist hərəkətlər çoxmillətli dövlətin bu sahədə uzun illər formalaşmış birliyinə zərbə vurur, partiya və dövlətin milli münasibətlər sahəsində ayrıseçkilik siyasətini aşkar edirdi.

Nəticə olaraq qeyd etmək istərdik ki, SSRİ-nin iflasının kökündə cəmiyyətdə günbəgün güclənən və dərinləşən neqativ proseslər nəticəsində yaranmış vəziyyətdə daxili və xarici qüvvələrin birgə dağıdıcı fəaliyyəti dayanır. Bu təkcə bir onillik ərzində baş verən proses deyildi. Uzun illər boyu sovet dövlətinə qarşı aparılan məqsədyönlü iş nəhayət 1980-cı illərin axırlarında öz məntiqi nəticəsinə gətirib çıxardı. Bu məsələdə hansısa bir amili mütləqləşdirərək iflası onunla bağlamar düzgün deyildir. Burada hər bir amil öz rolunu oynamış, təsirini göstərmişdir. Lakin onların içərisində bir sıra amilləri bir daha vurğulamaq yerimə düşərdi.

Onlardan ən vacibi kimi sovet rejiminin cəmiyyətin dəstəklərindən məhrum edilməsini göstərmək lazımdır. Bu dövləti məhv etmək üçün kommunist ideologiyasının həqiqi məqsədlərinin ifşa edilərək insanlarda ona olan inamın sarsıdılması, onların neytrallaşdırılması idi.

SSRİ-nin yaşaması və inkişaf etməsi üçün, demək olar ki, hər şey var idi. Ölkənin maddi imkanları, gücü, hərtərəfli potensialı kifayət qədər yüksək idi. Çatışmayan cəhət dövlət idarəçiliyində yaranmış eybəcər reallıqlar, korrupsiya və rüşvətxorluğun bütün həyatı iflic etməsi, yalançı pafos, boşboğazlıq, ölkə sərvətlərinin talan edilməsi, dövlətin və hakim partiyanın ədalətinə inamın sarsılması, hakimiyyətin legitimliyinin itməsi oldu. Bu amillər ölkənin daxilində olan maraqlı qüvvələrə və onunla əbədi müharibə aparan xarici qüvvələrə öz niyyətlərini yerinə yetirməyə imkan verdi. SSRİ-nin və digər çoxmillətli sosialist dövlətlərinin iflası ona daxil olan millətlərə öz müstəqilliklərinə qovuşmağa imkan versə də, bu çox ağır və əzablı yollarla baş verdi.

SSRİ-nin dağılmasının və iflasının alternativi sosialist sisteminin öz təməl prinsiplərinə dönməsi yolu ilə neqativ əlamətlərdən təmizlənməsi, cəmiyyətdə qanunların aliliyi şəraitinin təmin edilməsi, millətlərə azad inkişaf üçün maksimum şəraitin təmin edilməsi, ədalətli zəmində vahid ictimai-iqtisadi və mədəni məkanın formalaşmasına nail olunması ola bilərdi. Bunu etmək isə böyük iradə, insanpərvər mövqe, humanist istək tələb edirdi.

SSRİ-ni xilas etmək, onun dağılmasından doğan fəlakətlərin qarşısını almaq, ölkənin ictimai-iqtisadi həyatını neqativ amillərdən təmizləyərək mütərəqqi inkişafa nail olmaq mümkün idi. Lakin obyektiv və subyektiv səbəblər üzündən şans itirilmişdi. Nəticədə sosializm sisteminin əlehdarları olan artan qüvvələr yaranmış böhrandan istifadə edərək istədiklərinə nail oldular. Milli respublikalar öz müstəqilliklərinə qovuşsalar da, bu yolda müqayisəyə gəlməyən ağır itkilər verdilər.

Qeyd etmək lazımdır ki, SSRİ-nin süqutu bu gün də davam edən fəlakətli proseslərə təkan verdi. Yeni dünya nizamının formalaşması, dünyanın yenidən bölüşdürülməsi uğrunda başlayan mübarizə özünün yeni fazasına daxil olmuşdur. Bu fundamental məqamlara düzgün qiymət verilməsi yeni şəraitdə mühüm əhəmiyyətə malikdir.

ƏDƏBİYYAT

1. Авалиани Т. Разгром СССР осуществлялся высшим руководством СССР и КПСС // Экономическая и философская газета. 2009.

2. Белик Ю. А. 10 причин краха СССР // Экономическая и философская газета. 2008. № 1, 2, 3

3. Брутенц К. Развал Союза. Был ли неизбежен распад СССР // Свободная мысль XXI. 2005. № 1

4. Загладин Н. Советская трагедия: ретроанализ катастрофы СССР // Мировая экономика и международные отношения. 2007. № 12. С. 92–97

5. Зиновьев А. А. Гибель «империи зла» (очерк Российской трагедии) // Социологические исследования. 1994. № 10, 11; 1995. № 1, 2, 4;

6. Калабеков И.Г. СССР и страны мира в цифрах. Справочное издание. Москва, 2015

7. Кара-Мурза С.Г. Крах СССР. Москва: Алгоритм, 2013

8. Павлов В. Поражение. Почему захлебнулась косыгинская реформа. // Родина. — 1995. — № 11. — С. 68—70.

9. Распад СССР: Документы / Сост. Шубин А. В. М., 2006

10. Сазонов А. Кто и как уничтожил СССР? Архивные документы. М., 2010

11. Сахаров А. Н. К вопросу о причинах распада СССР // СССР и холодная война. М., 1995

12. Струков А. Н. Распад СССР. Закономерность или случайность?! Ставрополь, 2008;

13. СССР в цифрах … [по годам] : краткий статистический сборник. - М., 1960-1991.

14. Шубин А. В. Распад СССР: роль субъективных факторов // Историческое пространство. М., 2007. № 2. С. 5–37;

Açar sözlər: *SSRİ-nin iflası; müstəqil dövlətlərin yaranması; "Yenidənqurma"; sosializm nəzəriyyəsi; dünya sosializm düşərgəsi*

Ключевые слова: *Распад СССР; возникновение независимых государств; "Перестройка"; теория социализма; мировой социалистический лагерь*

Keywords: *collapse of the USSR; The emergence of independent states; "Perestroika"; The theory of socialism; World socialist camp*

РЕЗЮМЕ

Ибрагим Алиев

О причинах и последствиях распада СССР

В статье исследуется причины и последствия распада СССР, рассмаотриваются различные точки зрения по этому вопросу. Уделяется внимание ситуации, сложившейся накануне распада СССР , анализируются все возможные варианты его развития.

SUMMARY

Ibrahim Aliyev

On the causes and consequences of the collapse of the USSR

The article explores the causes and consequences of the collapse of the USSR, various views on this issue are being considered. Attention is paid to the situation that arose on the eve of the collapse of the USSR, all possible variants of its development are analyzed.

История

О ВЛИЯНИИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ ФАКТОРОВ НА СОСТОЯНИЕ МЕЖЭТНИЧЕСКИХ ОТНОШЕНИЙ И КОНФЛИКТОВ НА ПОСТСОВЕТСКОМ ПРОСТРАНСТВ

АЛИАГА МАМЕДЛИ
Доктор наук по антропологии

Между исследователями существуют различные точки зрения по поводу определения базовых причин роста этничности, межэтнической напряженности в современном мире. В связи с этим довольно часто происходит чрезмерная генерализация субъективно-психологических факторов. В частности говорят о "пробуждении достоинства", об обострении чувства национальной гордости. Вместе с тем, достаточно распространенным мнением является и то, что в условиях ведущей роли социально-экономических отношений в развитии общества, объективные явления социально-психологического свойства являются логическим следствием этих отношений. При таком подходе, согласно которому основу этнонационализма составляют экономические интересы, особое внимание уделяется межгрупповым различиям в доходах на душу населения, занятиях и общем уровне жизни и утверждается, что конфликт сошел бы на нет, если эти экономические различия были бы сокращены или преодолены [1, 145].

Немалое число ученых, исследующих проблему этничности, признают, что неравенство в распределении благ по этническому признаку является важной характеристикой этнически плюральных обществ. Поэтому неудивительно, что исследователи этничности и межэтнического взаимодействия не только не отрицают наличие конфликта в таких обществах, но и придают ему важное значение. Де Вос, например, считает, что конфликт надо рассматривать как нормальное или хроническое состояние этнически плюрального общества [2, 149]. Согласно этому подходу, этнические группы, конституированные по религиозному, расовому или коммунальному признаку, становятся удобным средством для достижения обеспечения групповых прав или средством защиты от притязаний других групп. Этничность в этом случае выступает как усилие этих групп использовать культурную форму для экономического и политического продвижения. Исходя из этого, некоторые исследователи приходят к выводу, что этничность - это не изначальный феномен, а стратегический выбор индивидов, которые в другом случае выбрали бы другое групповое членство как способ добиться некоторой власти и привилегий [3, 38].

Одной из удачных, на наш взгляд, теорий, объясняющих этнические конфликты, является теория фрустрации. Согласно этой теории, конфликтные ситуации, в том числе и этнического характера, в большинстве своем являются следствием накопившегося негативного потенциала – раздражителя. Дойдя до критической точки данное раздражение должно каким-то образом себя проявить. И не обязательно первым попавшим под руку объектом будет иноэтническая группа. Таковой может стать и этнически однородная, но отличающаяся по социально-экономическим параметрам группа [4]. Проблемы во взаимоотношениях между различными этносами были, есть и будут, независимо от социально-политических и экономических систем, господствующих в данное время. Другими словами, межэтнические отношения представляют собой определенную систему довольно устойчивого характера. Но другое дело, когда происходит разрушение системы в результате усиления в ней энтропийных сил. Это происходит тогда, когда в данной системе взаимоотношений возрастает роль внеэтнических факторов. Именно поэтому разрушение всей социально-экономической и политической системы в СССР в конце 80-х годов прошлого века привело к возрастанию разрушительных сил во всей

системе межэтнических отношений.

Всплеск межэтнических конфликтов на постсоветском пространстве не мог не привлечь внимания ученых к вопросу о связи социально-экономических проблем с ростом этничности. Исследуя причины межнациональных конфликтов в СССР, Бушков В. и Поляков С. пришли к заключению, что привнесенная на "национальную" почву "русская" индустрия расценивалась местными жителями как виновница всех, в том числе и экологических бедствий. По их мнению, обострял ситуацию и вынос на территорию союзных республик оборонных предприятий, создававших "невидимую" для коренного населения продукцию. Наиболее ощутимая для обывателя добывающая промышленность работала или на предприятия других регионов, или на "свои", но с русскими рабочими, что зачастую воспринималось как ограбление "коренной" национальности. По мнению этих авторов, такая ситуация таила в себе потенциал серьезного конфликта [5].

Изучение большинства межэтнических конфликтов или просто напряженных межэтнических отношений на территориях бывших советских республик дает основание полагать, что фактор экономической конкуренции играл едва ли не ведущую роль в их возникновении. Неслучайно Бушков В. и Поляков С. обращают внимание на то, что часть политической элиты союзных республик в 70-80-е годы прошлого века уже проявляли недовольство своей долей общесоюзного "пирога". При этом они умело внушали рядовым гражданам, что те "кормят Россию". Недовольство политикой Центра высказывала и наиболее дееспособная часть общества – руководители промышленных предприятий. Как полагают эти авторы, слабый Союз (но не его распад) устраивал и криминальные структуры, особенно связанные с наркобизнесом [5].

Связывая рост этничности и многочисленные межэтнические коллизии, потрясавшие постсоветское пространство с господством административно-бюрократической системы, необходимо учесть, что одна из основных причин этих явлений могла заключаться в нарушении системы соподчиненности экономических интересов как легального, так и нелегального свойства. Тенденции развала устоявшейся тоталитарной системы в СССР, усилившиеся в 80-е годы прошлого столетия, неминуемо повлекли за собой постепенное расшатывание пирамиды экономических интересов.

Не секрет, что к концу 80-х годов XX столетия социалистическая экономическая система вступила в фазу глубокого кризиса. Начали ослабевать экономические связи между предприятиями, регионами, республиками. Кроме того, известно, что, наряду с легальной экономической системой, в Советском Союзе функционировала очень сильная латентная (теневая) экономика. Она контролировала значительные территории и многомиллионные капиталы. С начала политики перестройки делались попытки навести порядок в этой сфере, но все они встречали очень сильное сопротивление. Одной из форм такого сопротивления, как можно полагать, было провоцирование межнациональных конфликтов. Если рассмотреть ситуацию, складывавшуюся в отдельных республиках бывшего союза, то справедливость этих выводов становиться очевидной. Так, в Нагорно-Карабахской автономной области (НКАО) Азербайджана лидеры теневой экономики, бывшие одновременно руководителями ведущих промышленных предприятий области, используя экономические проблемы, характерные на тот период для всей страны, начали широкую пропагандистскую кампанию о якобы дискриминационном отношении к армянам руководства республики. Укладываясь в русло традиционной армянской национальной идеи о расширении территорий за счет земель соседних народов, эта кампания на самом деле преследовала цель устранить своих азербайджанских конкурентов в сфере теневой экономики и установить полный контроль над ресурсами автономной области. Все эти процессы в системе экономических интересов были оформлены в идеологему "миацум" - движения за присоединение нагорной части Карабаха к Армении. В связи с этим, можно полагать, что борьба за сохранение и расширение сфер влияния армянскими теневыми бизнес структурами сыграла немалую роль в раскручивании нагорно-карабахского конфликта.

Следует отметить, что серьезные процессы к концу 80-х годов прошлого века происходили в демографической сфере НКАО. Анализ этих процессов свидетельствует о том, что 70-е - начало 80-х годов XX-го столетия были неблагоприятными с демографической точки зрения для армянского населения Карабаха. Урбанизация, миграция сельского населения в города, отъезд молодежи на учебу имели в Нагорном Карабахе определенную специфику. Ввиду того, что обучение, в основном, велось на армянском языке, армянские юноши и девушки для продолжения своей учебы уезжали в основном в Армению, где большая их часть оставалась на постоянное проживание [6, 66-67]. Кроме того, естественно, что адаптация сельского мигранта в городских условиях относительно безболезненно происходит в этнически однородной среде. По этим и некоторым другим причинам миграционный поток армян из Нагорного Карабаха был направлен в Армению или другие республики СССР, где имелись многочисленные армянские диаспоры. Все это приводило к тому, что в демографической структуре армянского населения Нагорного Карабаха происходили необратимые процессы. А именно уменьшалась доля молодежи и соответственно увеличивалась доля представителей старших возрастных групп. Таким образом, шел процесс сокращения рождаемости и роста смертности. И все это происходило на фоне стабильно высокого уровня естественного роста азербайджанского населения. Все эти процессы следующим образом отразилась на статистике: если по данным Всесоюзной переписи населения в 1970 году

армяне составляли 80,5% населения Нагорного Карабаха, то по данным Всесоюзной переписи 1979 года их доля упала до 75,9% [7; 8; 9]. Поскольку перепись 1989 года проводилась уже в условиях нарастающего конфликта, то его данные о соотношении азербайджанского и армянского населения в Нагорном Карабахе не могут быть доверительными. Тем не менее, тенденция была на лицо. При этом следует отметить, что процесс роста абсолютной численности и относительной доли азербайджанцев и одновременного снижения численности и доли армян шел не только в Нагорном Карабахе, но и в Армении. Так, по данным Всесоюзных переписей населения 1959 и 1979 годов доля азербайджанцев в Красносельском районе Армении увеличилась с 38,8% до 68,8%, в Варденисском районе – с 48,0% до 65,6%, в Кафанском районе – с 42,0% до 63,0% [10, 187-188]. Таким образом, не соответствуют действительности наиболее распространенные аргументы армянских авторов, требовавших перевода Нагорного Карабаха в состав Армении с целью прекратить процесс "вытеснения" армян из НКАО армян [11; 180]. Ведь если аналогичные этнодемографические явления имели место и в самой Армении, то это значит, что дело было не столько в сознательной политике азербайджанских властей, сколько в иных причинах.

При этом можно допустить, что "демографическое неблагополучие" в определенной степени детерминирует латентную межэтническую конфликтность и создает своеобразный фон этнического недовольства. Следовательно, эта набиравшая силу тенденция должна была привести к потере армянами положительного баланса численности в соотношении с азербайджанским населением НКАО. Подобное развитие событий означало постепенную утерю естественноисторическим путем нагорной части Карабаха как главной экспансионистской цели для идеологов "миацума".

Напряженную межэтническую ситуацию в Латвии накануне развала СССР также во многом можно объяснить социально-экономическими факторами. Безусловно, в данном случае ведущую роль, скорее всего, играло перманентное стремление латышей, насильно включенных в состав Советского Союза только после окончания второй мировой войны, к независимости. Однако, катализатором обострения напряженных отношений между латышами и русскими к концу существования СССР, все же можно считать проблемы социально-экономического плана. Так, в связи с форсированным развитием промышленности после советизации требовался дополнительный механический прирост населения Латвии, и в 60-е годы он составил более 100 тыс. человек. В 70-е и 80-е годы в результате межреспубликанской миграции население Латвии увеличилось более чем на 200 тыс.человек, главным образом, за счет малоквалифицированных рабочих прибывших из сельских районов РСФСР и Белоруссии [12]. Согласно данным Всесоюзной переписи 1979 года доля латышей в населении Латвии снизился до 53,7%, а в 1989 году эта доля вообще составила менее 50%. Соответственно шел процесс сужения сферы использования латышского языка. В упадок пришла и материальная база местной культуры. Как полагают некоторые исследователи, эти обстоятельства во многом породили национальный протест латышей, который созрел в первой половине 80-х годов [12, 17].

Одним из первых конфликтов, которому было придано межэтническое значение были события в столице Казахстана Алматы в декабре 1986 года. Поводом для выступления казахской молодежи тогда стало смещение Динмухамеда Кунаева с поста первого секретаря ЦК КП Казахстана и назначение на этот пост русского по национальности Геннадия Колбина. Это событие хорошо иллюстрирует наличие в советский период латентного конфликтного потенциала даже в такой "внешне спокойной" с точки зрения межэтнических отношений республике, как Казахстан. Социально-историческая память казахского народа о русской колонизации края и возникавшие по этому поводу конфликты создавали скрытую негативную национальную идеологему. В советской истории также было немало фактов, способствовавших накоплению у казахов негативных этнических установок в отношении русских. Так, в 1932 - 1933 гг. в результате массовых репрессий, поспешно и насильственно проведенной коллективизации, перевода кочевников, к которым относились большинство казахов, на оседлость казахский этнос понес большие потери. Позднее произошло переселение в Казахскую ССР корейцев, немцев Поволжья, калмыков, карачаевцев и представителей других народов - всего около 2 млн. человек [13, 9]. Все это также сильно повлияло на численность и этническую структуру населения республики.

Для соблюдения латентности негативной национальной идеологемы и сохранения внешнего межэтнического равновесия в Казахстане функционировали определенные коды, свидетельствовавшие о сохранении якобы межэтнического мира. Одним из таких кодов было распределение мест между отдельными этносами в иерархической структуре управления. Исходя из данного распределения были определены и экономические интересы и сферы влияния. Нарушение этих принципиальных основ создало угрозу как устоявшейся системе реальных экономических отношений, так и системе национально-этнических идеологических установок.

Даже в Туркменистане, где уровень этнической мозаичности был на довольно низком уровне, межэтнические коллизии накануне развала СССР приняли открытую форму и были, во многом обусловлены столкновением экономических интересов. Так, межэтническое напряжение стало нарастать здесь за счет того, что туркменское население было сориентировано против "кавказцев". В Ашхабаде это были в основном армяне, в Небит-Даге – азербайджанцы и выходцы с Северного Кавказа. Хотя конфликт имел и "антикооперативную" направленность, по существу это выглядело как избавление от коммерческого конкурента, осуществленное одними группами теневой экономики (туркменскими) по отношению к другим, более сильным экономически, но менее социально защищенным группам ("кавказским").

Известная историкам с очень давних времен тенденция к решению проблемы межэтнических отношений, связанных в той или иной степени с социально-экономическими трудностями и конкурентными ситуациями, путем выталкивания иноэтнических групп особенно ярко проявилась в СССР летом 1989 года в Ферганской области Узбекистана, где произошли погромы турок-месхетинцев. Вскоре после этого произошли волнения в Новом Узене (Казахстан), где местные жители требовали выселения осевших там групп северокавказских национальностей.

Наглядным примером принципиального характера экономических отношений в росте межэтнических противоречий является события происшедшее в Ферганской долине. Наличие глубоких экономических противоречий между группами, представлявшими, в основном, узбеков и турков-месхетинцев, дисбаланс в соотношении сфер влияния, рынков сбыта и уровней доходов перевел конкурентную борьбу в плоскость противостояния внеэкономического характера, завершившуюся полным выживанием целой этнической группы с территории Узбекистана. В тот период этот конфликт вызвал немало удивления не только среди простых обывателей, но и среди некоторых ученых [14]. Оба народа принадлежат к тюркской этнической общности, исповедуют ислам суннитского толка. Однако отсутствие понимания причинно-следственных связей в подобного рода взаимоотношениях, в частности не учет экономических факторов них, скорее всего и послужил основой для такого непонимания.

Практически к аналогичным выводам мы можем прийти при анализе ситуации, сложившейся в грузино-абхазском конфликте. Безусловно, что историческая подоплека этих событий имеет свою конкретную специфику, и в их взаимоотношениях присутствовал, правда, чаще всего, в латентной форме, конфликтный потенциал. Но актуализация данного потенциала и переход взаимоотношений в стадию вооруженного противостояния опять же имеет возбудителей в сфере политико-экономических, а вовсе не этнокультурных интересов. Небольшая территория Абхазии обладает большим потенциалом рекреационной экономики. В условиях существования советской системы, когда распределительный механизм в определенной последовательности удовлетворял интересы конкретных групп, безотносительно их этнической принадлежности, противоречия между грузинами и абхазами носили формальный историко-культурный характер и ограничивались спорами в кругах интеллигенции. Другое дело, когда возникла проблема перераспределения сфер экономического доминирования в связи с разрушением иерархической системы внутри советского партийно-бюрократического аппарата с соподчиненностью экономических интересов.

Согласно статистическим показателям, приднестровский регион Молдовы в развитии промышленности существенно опережал остальную часть этой республики. Здесь находились предприятия военно-промышленного комплекса, предприятия тяжелой и легкой промышленности союзного подчинения. Создание всех этих предприятий пришлось, главным образом, на период после Второй мировой войны и осуществлялось руками рабочей силы, ввозимой из России и Украины. В условиях централизованной распределительной экономики весь этот промышленный регион был в значительной степени оторван от хозяйственного комплекса Молдовы. Данное обстоятельство обусловливало некоторую автономность, как в целом региона, так и в особенности местной правящей элиты. Начало движения за государственную независимость, охватившее Молдову после 1985 года, первоначально облекшуюся в форму борьбы за возрождение родного языка не могло не вызвать настороженность, а в последствие и сопротивление руководящей элиты в Приднестровье. Ясно, что независимость Молдовы несла в себе угрозу ее власти. Таким образом, экономические и политические интересы этой элиты требовали серьезных действенных мер по ограничению и торможению центробежных процессов. Первоначально это противодействие предстало в форме борьбы против придания статуса государственного молдавскому языку. Когда же распад советской системы приобрел необратимый характер, противодействие приняло форму вооруженной борьбы за отделение от Молдовы.

Когда речь идет о принципиальном характере экономического фактора в нарастании напряженности в межэтнических отношениях, то, безусловно, здесь имеются в виду не технологические или производственные проблемы, а общественные отношения, обуславливаемые экономическими интересами. Именно поэтому ссылки на отставание того или

иного региона как причины возникновения межнациональных конфликтов не могут быть приняты как серьезные. Ведь конфликты возникали не между регионами, существенно различавшимися по уровню материального благосостояния народа, как, например, Азербайджан и Эстония. Наоборот, конфликты возникали в регионах с равными социально-экономическими показателями, между этническими общинами с относительно схожим уровнем жизни. Условия и уровень жизни армян в Азербайджане, в том числе и в Нагорном Карабахе, был не ниже, а по некоторым параметрам и выше чем у остального населения этой республики. Или же в конфликтах в Абхазии, Южной Осетии, Молдове такие определители как условия и уровень жизни не имели существенной значимости.

блестящие флаги» Сефевидов. Согласно его сведениям, среди победоносных флагов Шаха ТахмасибаI был и личный флаг с изображением полумесяца под названием «йуйурук», что означало «скакать, совершать набег». В 1535 г. Шах ТахмасибI, преследуя османскую армию, приближался к крепости Ван. Улема бей, узнав издали над сефевидским шахом блестящий флаг с полумесяцем, сказал Мухаммед паше о приближении Шаха Тахмасиба I с армией и безполезности вступления с ним в бой [25,164].

Сефевидский флаг из красно-фиолетовой цветной ткани, изготовленный в 1695 г. учеником Исмаила Кашани, длиной в 179,1 и шириной в 88,9 м, с аятами из Корана, в настоящее время хранится в Нью Йоркском Метрополитенском музее. Внутри крупной фигуры, находящейся в центре треугольного флага, написаны 110-ая сура «Наср», наверху в фигуре справа – 172-173-й аяты из 37-ой суры «Саффат», внутри маленькой желтой фигуры по-арабски написано «Эй, открывающий двери», в центре и по бокам двуцветной фигуры также по-арабски написано «Победный флаг, история начала работы» и «Победный флаг, дарованный Аллахом, дата завершения работы 1107, работа ученика Исмаила Кашани», а внутри нижней фигуры по-арабски написановыражение «Эй, великий» [38, invertar: 38.167]. Видно, красный флаг Сефевидов применялся в качестве праздничного и победного флага.

Все это еще раз подтверждает, что наряду с белым и зеленым флагами в азербайджанском государстве Сефевидов существовали и красный флаги.

Сведения в «Диване» Шаха Исмаила Хатаи также подтверждают наличие красных флагов у сефевидской армии:

"Qızıl ələm, qızıl bayraq, qızıl tac,
Geyinsə qazilər, ol gün həzərdir" [33,81; 23,322].

По поводу флагов Сефевидов Орудж бек Байат пишет: «Когда царь Персии (т.е. сефевидский – Т.Н.) лично отправляется в поход, об этом возвещает его знамя, которое несут впереди него. Кроме того, всем видно, как над царем держат зонт, который украшен драгоценными камнями и блестит как само солнце. Число войска точно известно по числу знамен, потому что над каждой тысячью солдат развевается свое знамя – это персы преняли у римских центурий – потому сколько видно их, столько имеется тысяч войска. И столь велика власть царя Персии, что он может легко собрать 200000 всадников, - я это видел сам. Во многих кампаниях прошлого, в которых мне пришлось участвовать, я насчитывал 200 знамен, и хотя такое же количество часто можно насчитать в любом небольшом отряде испанской пехоты, но сравнивать не стоит, потому что в Персии знамя поднимается только, если есть тысяча всадников или пеших солдат» [15,34-35].

На флагах и монетах, чеканенных в период Шаха Тахмасиба I (1524-1576), изображены солнце и золотой овен. Согласно сведениям в «Тарих-и джахан-ара», это было напрямую связано с взаимосвязью солнца со знаком зодиака овна, что в очередной раз подтверждает, что этот мотив имел астрологическое значение, был непосредственно связан со звездным календарем правителя.

На сефевидских флагах периода правления Шаха Аббаса I (1587-1629) был запечатлен астрологический мотив льва и солнца. Солнце и лев были изображены даже на официальной печати на одном из указов Шаха Аббаса I [24,154]. По мнению Ф.М.Кёпрюлю, по-видимому, Шах Аббас I перенял астро-логический мотив льва и солнца как продолжение древней традиции. Поэтому на чеканенных монетах и флаге размещалось изображение льва и солнца [16,608].

На портерете Гусейнали бека Байата – главы большой посольской делегации, посланной в 1599 г. Шахом Аббасом I в европейские страны, нарисованном в 1601 г. Фламандским художником, также изображены лев и восходящее солнце [30,21].

Томас Герберт, сопровождающий посла Дёрмера Коттона, направленного в 1627 г. в сефевидский дворец разрешить возникшую в Лондоне напряженность между сефевидскими послами Робертом Шерли и Нагдали беком, в своем труде «Путешествие в Иран в 1627-1629 гг.» отмечает, что «по полученным сообщениям, дед Шаха Исмаила Шейх Джунейд изготовил новый флаг, на котором были звезда и разлегшийся лев, на которого падали лучи солнца» [9,239; 30,20]. По мнению А.Ш.Шахбази, это предположение Томаса Герберта является ни чем иным, как удревление сефевидского символа с изображением льва и солнца, потому что нет ни единого доказательства тому, что при Шахе ИсмаилеI существовали флаги с изображением льва и солнца [30,20].

Немецкий ученый и путешественник, посетивший в 1636 г. Азербайджанское государство Сефевидов, Адам Олеарий в своем дневнике, говоря о сефевидской армии, указывает, что на их флагах были изображены лев и солнце. Он пишет: «С древности луна принадлежала персам, а солнце – грекам. Теперь же турки (Османы) получили луну, а Сефевиды – солнце, впереди которого лев» [4,53]. Французский путешественник Ж.Б.Тавернье тоже в своем дневнике, описывая медные монеты Сефевидов, указывает, что на одной стороне был изображен лев, несущий на спине солнце, а на другой - название города, где они были чеканены [35,157; 4,53-54]. По сведениям другого французского путешественника Ж.Шардена, в Сефевидском государстве наряду с боевыми флагами были и флаги, используемые в дни религиозных праздников. На этих треугольных флагах, изготовленных из дорогих тканей, были изображены меч Зульфугара имама Али или же лев и солнце. Флаги несалемдарбашы. По мнению Шардена, на медных монетах Сефевидов также были изображены лев и вос-ходящее солнце [29,287].

Французский историк М.Гербет в своем произведении «Иранский посол перед Людовиком XIV» собрал документы и рисунки, связанные с посольской делегацией сефевидского посла, калантаре г. Иреван Мухаммеда Рза бека, направленного в 1714 г. Шахом Султаном Гусейном на переговоры во дворец короля Франции Людовика XIV. Среди них есть рисунки, на которых изображено приближение посольской делегации Мухаммеда Рза бека к Версальскому дворцу, где в руках у одного из членов делегации есть белый флаг со львом и восходящим солнцем [7,138/1,154/1; 17,415].

По мнению Дж.Айдогмушоглу, как для персов мотив солнца на флаге символизировал легендарного правителя Ирана Джамшида, так и мотив льва, используемый Сефевидами, позже и Каджарами, олицетворял для шиитского

Сефевидский посланник Мухамед Рзабек в Париже.

мира имама Али. Этим сефевидские шахи старались соединить в своем характере две важные сущности [4,54]. По мнению Б.Б.Текина, при Шахе Исмаиле мотив льва крайне сильно повлиял на художествен-ную жизнь, и даже проник в стихи, сочиненные Шахом Исмаилом I о вознесение Пророка, и миниатюры того периода [36,102-103].

Без сомнения, мотив льва и солнца олицетворял силу и мощь. По мнению, Ф.Сюмера, у тюрков слово Арсланиспользовалось в качестве личных имен Аг Арслан, Гара Арслан, Гёй Арслан, Гызыл Арслан, Арслан Апа, Арслан Бога, Арслан Шах [32,604,613-614].

В империи Надир шаха Афшара, сменившей Сефевидов, а также в государстве Каджаров, построенном на сефевидских традициях, тоже использовались флаги с мотивами льва и солнца. Как и при Сефевидах, на официальных печатях Надир шаха использовался мотив льва и солнца [см: 24,151-153]. В период Фатали шаха (1797-1834) на флаге Каджаров официально было принято использование мотива льва и солнца, ранее используемого сефевидскими шахами. Фаталишах приказал генералу Джону Малькольму, прибывшему в 1810 г. в Иран в качестве представителя Ост-Индской компании, заняться дизайном нового государственного символа, на этом символе было изображено светящееся солнце позади сидящего льва [см: 41,135-141]. Только в период Насреддин Шаха (1848-1896) во II половине XIX в. на флаге Каджаров в лапе льва появился меч. Флаг Каджаров, с мотивом изображенияльва, держащим в лапе луну, сохранился в мирном договоре, заключенном между Каджарами и Османами в 1867 году [см: 27,168-171].

Как видно, Каджары, продолжающие политику Сефевидов, оставаясь верными традициям периода Сефевидов, также и на флагах повторно возродили изображения, присутствующие на флагах Сефевидов. Империя Афшаров, созданная после падения азербайджанского государства Сефевидов Надир шахом, после убийства последнего была разрушена и страна длительное время была ареной внутренней борьбы. Поэтому Каджары, используя политические и религиозные символы Сефевидского периода, надолго оставшиеся в памяти народа, стремились объединить под единым флагом народы Ирана. Интересно, что и на официальном флаге Иреванского ханства, созданного азербайджанской династией Каджаров, изображены лев в лапе с мечом и солнце [11,8].

Необходимо отметить, что и в империи Великих Моголов были флаги с мотивами льва и солнца. В своем дневнике английский путешественник священник Эдвард Терри (1590-1660), побывавший в 1617 г. во дворце могольского правителя Джахангира, описал флаг и печать могольского правителя. По его сведению, на флаге Султана Джахангира на заднем фоне было изображено большое солнце, а перед ним – опущенный на колени лев, смотрящий направо [38,346-347; 4,57]. Несмотря на борьбу в различные периоды между Се-февидами и Могольским государством за Кандагар, между ними существовали тесные отношения. Даже при создании государства Бабур шах получил необходимую помощь от Сефевидов. Сефевидский правитель шах Аббас обращался к Акбер шаху «Шах бабам», могольский правитель Джахангир обращался к Шаху Аббасу, называя его «мой брат» [5, 150, 188]. Поэтому использование подобия флага Сефевидов в государстве, созданном при помощи Сефевидов, должно восприниматься как должное, т.к. могольские правители были тро-нуты от деятельности сефевидских шахов. Между двумя государствами постоянно существовали политические, экономические и социально-культурные связи.

Факты, приведенные из источников того периода и дневников путешественников, еще раз доказывают, что в азербайджанском государстве Сефевидов существовали представлявшие сперва правителя, а затем госу-дарство флаги различных размеров, изготовленные из дорогих тканей. Среди флагов азербайджанского государства Сефевидов с конца 16 в. вплоть до падения государства преобладали те, на которых были изображены лев и солнце.

ЛИТЕРАТУРА

1. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların yeni iqtisadi instrument kimi tətbiqi problemləri və onların modelləşdirilməsi // "Məruzələr", AMEA, №3, Bakı, 2008, S.144-151.

2. Алиев Ш.Т. Роль специальных экономических зон в развитии предпринимательства и инвестиционной активности // «Российское предпринимательство», Россия, Москва, № 7(205), 2012, С. 180-184.

3. Павлов П.В. Особые экономические зоны как институциональные инструменты включения России в глобализирующееся мировое хозяйство. Дисс. д-ра экон, наук, Таганрог (Россия), 2006-360 с.

4. Басенко А.М. Функции свободных экономических зон в механизме интеграции национальной экономики в системе мирохозяйственных связей. Дисс. д-ра экон. наук. Ростовский Государственный Экономический Университет (Россия), 2002-342 с.

5. Брынцев А.Н. Формирование инвестиционного климата в промышленности в условиях свободной экономической зоны. Дисс... д-ра экон. наук, Академия Народного Хозяйство при Правительстве РФ. Москва, 2004-322 с.

6. Smith Adam. An Inquiry into the Nature and Causes of the Wealth of Nations (1776).

7. Aliyev Sh.T. Importance of Special Economic Zones in Innovation of National Economics. Pensee multidisciplinary journal – Paris, France (IF = 0,063 – by Thomson Reuters), 2014, Vol.76, Issue, 11.-P. 12-20.

8. Aliyev Sh.T. The Perspectives of Enforcement of the Special Economic Zones Role in Acceleration of Extension of the Social-Economic Problems in Azerbaijan in the Context of the Experience of Poland, X International Scientific Conference of Economics – E-society in Central and Eastern Europe, Nalenchov, May 11-13, 2009.- P. 409-412.

9. Фразье М.И., Рей Р. «Возможности создания зоны свободного предпринимательства в Болгарий» // Журнал «Вопросы экономики» - 1991. - №10.- С. 115 – 125.

10. Алиев Ш.Т. Проблемы вариативности создания и функционирования специальных экономических зон в Азербайджане в контексте мирового опыта // Журнал «Маркетинг и менеджмент инноваций», Сумы, 2010, С.144-148.

11. Алиев Ш.Т. Вектор специальных экономических зон в инноватизации // Журнал «Инновационная деятельность», Саратов, № 4 (13), 2010, С. 7-11.

12. Səmədzadə Z.Ə. Çin iqtisadi möcüzəsi. Bakı, Gənclik, 2001. -324 s.

13. Алиев Ш.Т. Фактор особых экономических зон в экономическом развитии Азербайджанской Республики // «Философия и хозяйства». Альманах центра общественных Наук и Экономического факультета МГУ, №2 (50), Москва, 2008.- С. 95-102.

14. "Xüsusi iqtisadi zonalar haqqında Azərbaycan Respublikasının Qanunu". 14 aprel 2009-cu il.

15. «Xüsusi iqtisadi zonalar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 iyun tarixli 101 nömrəli Fərmanı.

16. Əliyev Ş.T. Qeyri-neft sektorunun inkişafında xüsusi iqtisadi zonaların təşkili məsələləri // Audit jurnalı. 2014, № 3, S. 43-47.

17. Aliyev Sh.T. The Strategics and The Role of Oil Factor in Transition to the Innovation Economics of Azerbaijan. International symposium on Innovative Economic Policies FOF Climate Change Mitigation, Italia, 2009.-P. 265-268.

18. Aliyev Sh.T. «The Realization Problems of Effective Integration Methods of the Economic Model Formation of Azerbaijan». International Business-Economic Research Conference, Las Vegas (USA), The Clute Institute, October 5-7, 2009.

19. Алиев Ш.Т. Важность управления процессом создания и функционирования особых экономических зон в странах СНГ//Журнал «Менеджмент в России и за рубежом », Москва, № 3-2009.-С.69-72.

20. Babayev V. İqtisadi artımı iqtisadi inkişafa çevirəcək Strateji Yol Xəritəsi/http:www.science.gov.az.

21. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il/http://www.president.az.

Açar sözlər: *Azərbaycan Səfəvi dövləti, tuğ, bayraq, I Şah İsmayıl, I Şah Abbas.*

Ключевые слова: *Азербайджанского государства Сефевидов, туг, флаг, Шах Исмаил I, Шах Аббас I.*

Key words: *the Azerbaijan Safavi state, tug, flag, Shah Ismail I, Shah Abbas I.*

XÜLASƏ

XVI əsrin başlanğıcında Azərbaycan dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoydu. Uzun Həsənin nəvəsi görkəmli dövlət xadimi Şah İsmayıl Xətayi (1501-1524) babasının başladığı işi başa çatdırdı, şimallı-cənublu bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirdi və paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövlətini yaratdı.

Digər Azərbaycan dövlətləri kimi, Səfəvi dövlətində də dövlət və hakimiyyət simvolları olan və dövlətin əsas atributlarından biri hesab olunan bayraqları mövcud olmuşdur.

Azərbaycanda tarixi ənənələr üzərində qurulan və sırf milli məfkurəyə, azərbaycançılığa, türkçülüyə və islami prinsiplərə söykənən dövlət kimi tarixə düşən Azərbaycan Səfəvi dövlətinin bayraqları ayrı-ayrı hökmdarlar dövründə fərqlənmişdir. Məqalədə müəllif dövrün qaynaqlarından, Qərbi Avropa səyyahlarının gündəliklərindən, XVI-XVII əsrlərdə ayrı-ayrı əsərlərə çəkilmiş miniatürlərdən istifadə etməklə Azərbaycan Səfəvi dövlətinin bayraqlarına aydınlıq gətirməyə çalışmışdır.

SUMMARY

At the beginning of the 16th century, Azerbaijani statehood entered a new phase in its historical evolution. The grandson of Uzun Hassan, the prominent statesman Shah Ismail Khatai (1501-1524) completed the work begun by his grandfather, united the northern and southern lands of Azerbaijan under his rule and created a single, the centralized Azerbaijani Safavi state the capital city being Tabriz.

Like other Azerbaijani states, the Safavi state also had flags which considered as the symbols of the state and government and one of the main attributes of the state.

Flags of the Azerbaijani Safavi state which was created in Azerbaijan, on the historical traditions and pure national ideology, as a state based on Azerbaijanism, Turkism and Islamic principles, distinguished under reign of the separate Safavi rulers. In the article, through using the sources of the time, diaries of Western European travelers, miniatures painted for separate works in the XVI-XVII centuries the author tried to illuminate flags of the Azerbaijani Safavi state.

Siyasət

MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ VƏ AZƏRBAYCAN

XALİD NİYAZOV
Siyasi elmlər üzrə fəlsəfə doktoru

Bu gün bütün dünya dövlətlərinin varlığı, mövcudluğu və gələcək inkişaf perspektivləri daha çox onların təhlükəsizlik faktoru ilə şərtlənir. "Təhlükəsizlik" anlayışı siyasi leksikonda "milli təhlükəsizlik", "milli-dövlət təhlükəsizliyi", "dövlət təhlükəsizliyi", "çoxmillətli təhlükəsizlik", "ümummilli təhlükəsizlik" anlamını verir.

Ölkənin milli təhlükəsizlik sistemi cəmiyyətin və dövlətin siyasi, iqtisadi, sosial sahələrində müxtəlif təhlükə mənbələrinə qarşıdurma funksiyalarını yerinə yetirən bütün dövlət və qeyri-dövlət orqanları və təşkilatlarının məcmusudur. Milli təhlükəsizlik anlayışı iki bir-biri ilə qarşılıqlı əlaqədə olan aspektdə özünü göstərir.

Müstəqil dövlətin milli maraq və təhlükəsizlik prioritetləri

Keçmiş sovet dövlətinin siyasi strategiyasında dünya kapitalizmi düşmən obrazında təqdim edilirdi. Daxili və xarici siyasətdə baş verən bütün neqativ hadisələrdə "suç keçisi" kimi dünya kapitalizmi günahlandırılırdı. Ölkənin milli mənafeyinin təhlükəsizliyi birmənalı şəkildə siyasi rejimin demokratikləşməsini tələb edir. Görkəmli politoloq Z.Bjezinski keçmiş sosialist düşərgəsi ölkələrini təsnifləşdirərkən Rusiyanı inkişaf istiqaməti qeyri-müəyyən olan üçüncü qrup dövlətlər sırasına aid edir. Müəllifin fikrincə, iqtisadi xaos, inflyasiya və işsizlik demokratikləşmə prosesinə mane olan çox mühüm amillərdən bəlkə də birincisidir. Rusiyanın milli mənafe konsepsiyasının yaradıcılarından sayılan Q.V.Osipova görə, bu ölkədə aparılan islahatlar strateji tədbirlərə cavab vermir. Dövlətin bürokratik aparatı islahatlar vasitəsilə cəmiyyətdə lümpenləşmə yaradır.

Bəhsini apardığımız məsələlər Azərbaycan siyasi, geosiyasi və dövlətçilik arxitekturası üçün kifayət qədər yeni məsələlərdir. Belə ki, milli təhlükəsizlik problemi ölkəmizin də içində olduğu sovetlər birliyi üçün talemüəyyənedici məsələ olduğu üçün zamanında onun həlli müttəfiq respublikaların deyil, birbaşa və müstəqim şəkildə SSRİ rəhbərliyinin prioritetinə aid vəzifə idi. Heç şübhəsiz, 25 il əvvəl əldə edilmiş müstəqilliyin, Ulu öndər H.Əliyevin ifadə etdiyi kimi, dönməzliyini, daimiliyini və əbədiliyini təmin etmək üçün ən ümdə məqsəd və vəzifələrindən biri də məhz ölkənin milli təhlükəsizlik konsepsiyasının işlənib hazırlanmasıdır.

Dövlət başçısı İlham Əliyevin 13 illik prezidentlik fəaliyyəti Azərbaycanın milli təhlükəsizliyinin fundamental şəkildə qorunmasına, milli təhlükəsizlik komponentlərinin vahid sistem halına gətirilməsinə yönəlmişdir. Təcrübə göstərir ki, milli təhlükəsizliyin etibarlı təminatı cəmiyyət həyatının ən müxtəlif sahələri ilə sıx bağlı olub ümumi vəhdət təşkil edir. Müstəqil dövlət olaraq Azərbaycanın milli maraq və təhlükəsizliyi də region və qlobal dünya maraqlarından ayrıca, təcrid olunmuş şəkildə təmin oluna bilməz. Bu reallıqdan çıxış edən Prezident İlham Əliyev sürətlə inkişaf edən, müxtəlif sahələrdə ciddi uğurlara imza atan müstəqil respublikamızın milli təhlükəsizliyinin qorunmasını vacib məsələ kimi önə çəkmişdir. Dövlət başçısı haqlı olaraq bildirir ki, xalqın firavan, azad və təhlükəsiz yaşaması baxımından müasir dövrdə milli təhlükəsizlik amilinə xüsusi diqqət yetirilməli, bu istiqamətdə mühüm addımlar atılmalıdır.

Milli maraqlara əsaslanan qətiyyətli diplomatiya eyni zamanda respublikanın Cənubi Qafqazdakı strateji mövqeyini və nüfuzunu daha da artırmaqla, Avratlantik məkana inteqrasiyasına geniş imkanlar açır. Şərqlə Qərbi birləşdirən neft, qaz və nəqliyyat-



kommunikasiya layihələrinin mərkəzinə çevrilmiş Azərbaycan bu gün nəinki təhlükəsizlik problemlərinin həllinə nail olur, eyni zamanda Avrasiya məkanında subregional inteqrasiyanın, enerji təhlükəsizliyinin mühüm təminatçısı qismində çıxış edir.

Aparıcı Qərb dövlətləri Azərbaycanın iştirakı olmadan Xəzər hövzəsi regionunda hər hansı transmilli layihənin gerçəkləşdirilməsini mümkünsüz sayır, respublikamızın mövqeyi ilə hesablaşırlar. Avropanın xam neftlə, təbii qazla təminatında tədricən əsas söz sahiblərindən birinə çevrilən respublikamız bu coğrafi arealda enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilir.

Azərbaycan Prezidenti İlham Əliyevin 23 may 2007-ci ildə imzaladığı "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nda milli təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin olunmasına xüsusi yer ayrılmış, bu sahədə fəaliyyətin konkret istiqamətləri göstərilmişdir. Avropa və Avratlantik strukturlarına inteqrasiya, beynəlxalq təhlükəsizliyə töhfə, beynəlxalq təşkilatlarla əməkdaşlıq, regional və ikitərəfli münasibətlər, region və qeyri-region ölkələri ilə əlaqələr bu sırada xüsusi yer almışdır [1].

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin milli təhlükəsizliyi üçün yaratdığı açıq-aşkar təhdid faktı təqdim etdiyimiz məqalənin tədqiqat predmetinə aid olmadığı üçün belə bir məqamı vurğulamaqla kifayətlənək ki, üçüncü onilliyin tamamına yaxınlaşan münaqişənin həlli yolunda müxtəlif beynəlxalq təşkilatların uğursuz vasitəçilik missiyası Azərbaycana öz torpaqlarını istənilən yolla işğaldan azad etmək üçün hüquqi-siyasi və mənəvi əsaslar yaradır.

Təəssüflə vurğulanmalıdır ki, işğalçı Ermənistan bugünədək BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin şərtlərini yerinə yetirməyərək işğalçılıq siyasətini davam etdirir. Lakin Azərbaycanın günü-gündən möhkəmlənən siyasi-iqtisadi qüdrəti, beynəlxalq aləmdə güclənən mövqeləri ölkənin milli təhlükəsizliyinin bu gün üçün ən vacib şərti olan işğal olunmuş torpaqların azad edilməsinə ümidləri hər gün daha da yaxınlaşdırır.

Münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suveren hüquqlarına riayət çərçivəsində həlli ölkə üçün taleyüklü məsələ olmaqla, beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinə cavab verməklə yanaşı, həm də dövlətin milli təhlükəsizlik siyasətinə cavab verir. Təsadüfi deyildir ki, prof. Ə.Həsənova görə milli təhlükəsizlik siyasətinin birinci ali məqsədini Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, vətəndaşların hüquqlarının, cəmiyyətin milli və vətəndaş birliyinin, ölkənin sabit inkişafının tələb etdiyi ən ümdə dövləti vəzifələr və onların təminatı yolları, mövcud milli ehtiyatların bu işə səfərbər edilməsi proqramı və bəhs olunan sahədə məsuliyyətli dövlət idarəçiliyinin yaradılması təşkil edir [2, 83].

Təhlükəsizlik anlayışının daxili strukturu

Təhlükəsizliyi miqyasına, təyinatına və vəzifələrinə görə iki yerə ayırmaq mümkündür:

1. Beynəlxalq təhlükəsizlik. Buraya xarici, qlobal, kosmik təhlükəsizlik növləri daxildir.
2. Milli təhlükəsizlik isə siyasi, iqtisadi, hərbi, ekoloji, informasiya, mədəni təhlükəsizlik sferalarını ehtiva edir.

Təhlükəsizlik fərdi və kollektiv vasitələrlə təmin olunur. Təhlükəsizliyin təmin olunması üçün texniki, iqtisadi və texnoloji imkanların yol verdiyi risklərdən istifadə olunur.

Təhlükəsizliyin aşağıdakı növlərini təsnifləşdirmək mümkündür: milli təhlükəsizlik; hərbi təhlükəsizlik; xarici təhlükəsizlik; daxili təhlükəsizlik; dövlət təhlükəsizliyi; beynəlxalq təhlükəsizlik; regional təhlükəsizlik; informasiya təhlükəsizliyi; iqtisadi təhlükəsizlik; siyasi təhlükəsizlik; ekoloji təhlükəsizlik.

Müasir dövrdə təhlükəsizliyin texnoloji, tibbi, ərzaq, bank, maliyyə, nəqliyyat (yol, aviasiya, dəniz, boru-kəmər), demoqrafik, bələdiyyə, ailə, iş, xidmət və s. növlərini də fərqləndirirlər [3].

Beləliklə, təhlükə – vətəndaşların siyasi hüquq və azadlıqlarını məhdudlaşdıran, cəmiyyət tərəfindən hakimiyyətə hər hansı bir təsiri neytrallaşdıran, dövləti zəiflədib dağıdan, milli müstəqilliyin itirilməsini şərtləndirən, deqredativ situasiyalar yaradan, xaos və konfliktlər törədən, hüquq qaydalarını, nizam-intizamı dağıda bilən sosial hadisələr, proseslər və hərəkətlər deməkdir. Deməli, təhlükəsizlik sisteminin şəffaflığı cəmiyyətin qabaqcıl sosial qüvvələrinin müəyyən maraqlarının düzgün müəyyənləşdirilməsindən, onların tarazlaşdırılmasından, hakimiyyətin struktur və funksiyasından asılıdır.

Milli təhlükəsizliyin üç əsas səviyyəsi vardır:

1. Şəxsiyyətin təhlükəsizliyi
2. Cəmiyyətin təhlükəsizliyi
3. Dövlətin təhlükəsizliyi

Hazırda sürətli iqtisadi islahatlar mərhələsini yaşayan Azərbaycan dövləti heç bir xarici müdaxilə və təsir olmadan öz daxili həyatını qurmaq, idarə etmək, daxili sabitliyini qorumaq, ölkənin strateji inkişafını, konstitusiya quruluşunu səmərəli təmin etmək vəzifəsini uğurla həyata keçirir. Belə bir mürəkkəb mərhələdə respublikamız müəyyən etdiyi demokratik cəmiyyət, hüquqi və dünyəvi dövlət, dünyanın qabaqcıl siyasi, iqtisadi və təhlükəsizlik sistemlərinə inteqrasiya xəttini gerçəkləşdirmək üçün regionun və dünyanın güc mərkəzləri ilə münasibətlərə dair xüsusi düşünülmüş, ardıcıl şəkildə həyata keçirilən milli təhlükəsizlik konsepsiyasına malik olmalıdır. Bu konsepsiya dövlətin həm daxili, həm də xarici vəziyyətini və vəzifələrini, onu reallaşdırmağın əsas yollarını və vasitələrini dəqiq müəyyən edən milli proqrama söykənməlidir [4].

Milli təhlükəsizlik strategiyasının məqsədi – milli təhlükəsizliyin təmin olunması naminə dövlətin qüdrət və imkanlarından istifadə edilməsidir.

Hər bir dövlətin milli sabitlik və milli təhlükəsizliyin effektiv müdafiəsi siyasəti vardır. Məhz bu siyasət milli təhlükəsizlik siyasəti (MTS) adlanır. Milli təhlükəsizlik siyasəti (MTS) ölkənin dövlət və vətəndaşlar üçün təhlükəsizliyi necə təmin etdiyini təsvir edən çərçivədir və çox vaxt vahid sənəd şəklində tərtib edilir.

Problemin konseptual şəkildə tədqiqatı ilə məşğul olan prof. Ə.Həsənov vahid və mükəmməl MTS-ə sahib olmağın beş əsas

səbəbini göstərir:

• dövlətin bütün təhlükələrin qarşısının alınmasını təmin etməsi;

• təhlükəsizlik aktorlarının fəaliyyətini yaxşılaşdırmaqla təhlükəsizlik sferasının effektliyinin artırılması;

• siyasətin tətbiqinə nəzarət edilməsi;

• daxili konsensusun yaradılması;

• regional və beynəlxalq inam və əməkdaşlığın möhkəmləndirilməsi.

Mükəmməl bir təsisata çevrilmək üçün milli təhlükəsizlik siyasəti, öncə, milli təhlükəsizliyə olan real təhdidlərin ətraflı tədqiq edilməsini tələb edir. Daxili və xarici təhlükələrin təhlili uzun illər biri-digərindən əlahiddə nəzərdən keçirilmişdir. Lakin təhlükəsizlik siyasəti özündə əsasən yerli və beynəlxalq mühitin müfəssəl dəyərləndirilməsini ehtiva edir. Belə bir xətt müəyyən edilərkən təhlükəsizlik üçün əhəmiyyət kəsb edən bütün dövlət aktorlarının, xüsusən də beynəlxalq və qeyri-dövlət aktorlarının təklifləri nəzərə alınmalıdır.

İkincisi, müxtəlif mənbələrin təkliflərini özündə cəmləşdirən siyasətin mərkəzləşdirilmiş qaydada müəyyən edilməsi təhlükəsizliyin vahid şəkildə dərkinə yol aça bilər.

Üçüncü, MTS-lər milli təhlükəsizliklə məşğul olan müxtəlif aktorlara siyasi yol göstərir. MTS-lər operativ qərarlarla milli siyasətin uzunmüddətli və qısamüddətli məqsədlərinin müqayisəsi üçün müvafiq bazanı təmin edir. Mərkəzləşdirmə prosesi isə hazırlama və tətbiqetmə prosesində uyğunsuzluqları, kəsirləri və çatışmazlıqları aradan qaldırmağa yardım üçün resurslardan optimal istifadəyə imkan verir.

Dördüncüsü, MTS-lər peşəkarlar arasında müzakirələri və əməkdaşlığı dərinləşdirmək yolu ilə təhlükəsizlik siyasətinin geniş mənimsənilməsini təmin edir. Bu dialoq aparıcı milli dəyər və maraqlar, eləcə də həmin dəyər və maraqlara olan təhlükələrin miqyası barədə razılığa gəlməyə kömək edə bilər.

Beşincisi, MTS-lər regional və beynəlxalq səviyyədə inam yaradan alətlərdir. Ardıcıl və şəffaf siyasət dövlətin təhlükəsizliklə bağlı narahatlıqlarını beynəlxalq ictimaiyyətə çatdırmaqla beynəlxalq həmrəyliyi və əməkdaşlığı asanlaşdırır" [5].

Milli təhlükəsizlikdə milli kontekst

Elmi ədəbiyyatda dövlətin milli təhlükəsizlik siyasəti digər təsisatlarla – müdafiə siyasəti, təhlükəsizliklə bağlı beynəlxalq öhdəliklər, daxili təhlükəsizlik təsisatları, milli maraq, hərbi idarəetmə orqanları təsisatları, qeyri-hərbi nazirliklər və təhlükəsizlik sektorları, parlament nəzarəti, parlamentdəki təhlükəsizlik sahəsinə aid daimi komitələr və fövqəladə hallar təsisatları ilə qarşılıqlı əlaqədədir.

Azərbaycan tədqiqatçısı A.Piriyev göstərir ki, milli təhlükəsizlik problemi qarşı tərəfin də mənafeyinin nəzərə alınmasını tələb edir. Milli təhlükəsizlik qarşı tərəfə siyasi inamın yaranması ilə təmin edilir. Dövlətin xarici siyasəti başqa dövlətlərlə münasibətdə mənafelərin qarşılıqlı nəzərə alınmasından ibarətdir. Mənafelərin ziddiyyətli olması təhlükəsizlik sisteminin yaradılmasına çətinlik törədir. Hər bir dövlətin xarici siyasətinin əsas məqsədi milli təhlükəsizliyin yaradılmasından ibarətdir. Dövlət tarixi siyasi təcrübə əsasında xarici siyasət konsepsiyasını hazırlayır və xarici siyasi konsepsiyada milli təhlükəsizlik problemi mühüm yer tutur. Lakin milli təhlükəsizlik konsepsiyası daha geniş olmaqla dövlətin həm xarici, həm də daxili siyasətini əhatə edir [6, 40-46].

İstanbul Hərbi Akademiyası tərəfindən çap edilmiş "Milli güvənlik siyasəti və strategiyası" kitabında aşağıdakı istiqamətlər milli mənafeni təşkil edir:

1. Vətən savaşı
2. Bölgə mənfəəti
3. Ekonomik mənfəət
4. Milli dəyərlər [7].

Azərbaycanlı tədqiqatçı C.Xəlilov göstərir ki, milli təhlükəsizlik siyasəti dövlətlərin xarici, istərsə də daxili siyasi xəttinin tərkib hissəsi kimi kompleks halında balanslaşdırılmış şəkildə bu və ya digər dərəcədə ardıcıl həyata keçirilir. Lakin onun bilavasitə və məxsusi olaraq məqsədyönlü həyata keçirilən sahələri də vardır.

Milli təhlükəsizlik siyasətinin sahələr üzrə strukturu da nəzərə alınmalıdır. Bəzi müəlliflər təhlükələr və onların dəf edilməsinin olduqca geniş təsnifatını verirlər. Bu sırada miqyaslara görə (qlobal təhlükələr, dövlətlərarası təhlükələr, dövlətdaxili təhlükələr, regional təhlükələr və lokal təhlükələr), ictimai həyat sahələrinə görə (siyasi, hərbi, sosial, iqtisadi, ekoloji, elmi-texniki informasiya, ərzaq, energetika, psixoloji, milli-etnik, səhiyyə və s.) təhlükələr və bunlara müvafiq olaraq milli təhlükəsizlik fəaliyyəti formalarını araşdırırlar.

Bu təhlükələrdən hər biri müvafiq şəraitdə milli təhlükəsizlik sisteminin sarsılmasına, hətta dövlətçiliyin itirilməsinə gətirib çıxara bilər.

"Milli təhlükəsizliklə bağlı konsepsiya və siyasətin hazırlanıb həyata keçirilməsi, strategiyanın hazırlanıb uğurla tətbiq edilməsi müxtəlif mənbələrdən ola biləcək təhlükələrin və onların aradan qaldırılması imkanlarının diqqətlə öyrənilməsi və əməli fəaliyyətdə onların nəzərə alınmasını da zəruri edir. Bu baxımdan tədqiqat işi üçün seçilmiş sahə xüsusi əhəmiyyət kəsb edir" [8, 32].

İndi milli təhlükəsizlik anlayışı daha geniş sahələri – hərbi, ictimai, beynəlxalq, iqtisadi, informasiya sahələrində şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyini əhatə edir. Siyasətşünas N.Məmmədov özünün "Geosiyasətə giriş" əsərində milli təhlükəsizliyə belə bir tərif verir: "Ümumi mənada götürsək, milli təhlükəsizlik ölkənin milli dəyərlərinin, maraqlarının və milli həyat tərzinin real xarici və daxili təhlükə və təhdidlərdən qorunmasının təmin edilməsi kimi başa düşülür" [9, 278]. Müəllif, əslində, belə bir definisiya ilə "milli təhlükəsizlik" anlayışının əhatə dairəsini bir qədər məhdudlaşdırmışdır.

Digər azərbaycanlı tədqiqatçı D.Həşimov qeyd edir ki, dövlətin, cəmiyyətin möhkəmliyi, sabitliyin təmini problemlərinə diqqət yetirilməsi antik dünyadan məlumdur. Milli təhlükəsizliyin üç əsas səviyyəsi vardır:

• Şəxsiyyətin təhlükəsizliyi;

• Cəmiyyətin təhlükəsizliyi;

• Dövlətin təhlükəsizliyi.

Siyasi sistemin, ictimai münasibətlərin xarakterindən asılı olaraq həmin səviyyələrin dövlətdə rolu və yeri dəyişkəndir. Millətin düçar olduğu böhran anlarında təhlükəsizlik səviyyələri daha aydın nəzərə çarpır. D.Həşimov yazır: "Demokratik cəmiyyətlərdə şəxsiyyətin təhlükəsizliyi, onun hüquq və azadlıqlarının qorunması ön planda durur. Dövlətin təhlükəsizliyi səmərəli idarəetmə mexanizmi, ictimai-siyasi qüvvələrin fəaliyyətinin əlaqələndirilməsi, eləcə də onları müdafiə edən qurumların fəaliyyəti ilə, cəmiyyətin təhlükəsizliyi, ictimai təsisatların, normaların, ictimai şüurun inkişafı ilə, şəxsiyyətin təhlükəsizliyi isə özünün inkişaf və realizə edilməsinə imkan verən ictimai qurumların, təşkilatların, hüquq və əxlaq normaları kompleksinin formalaşdırılması yolu ilə əldə olunur" [10, 102].

D.Həşimovun fikrincə, milli təhlükəsizliyin strukturuna aşağıdakı elementlər daxildir: siyasi, iqtisadi, ekoloji, hərbi, informasiya, mədəni.

Lakin belə bir təsnifat ehkam deyildir və milli təhlükəsizliyin strukturuna digər elementlər də daxil edilir. Məsələn, A.Piriyev milli mənafe təhlükəsizliyini, beynəlxalq terrorizm təhlükəsizliyini, demoqrafiq, sərhəd və dini təhlükəsizliyi də milli təhlükəsizliyin strukturuna aid etmişdir.

Tədqiqatçı milli təhlükəsizliyin aşağıdakı əsas cəhətlərini göstərir:

• birincisi, beynəlxalq təhlükəsizlik – hər bir dövlət xarici siyasət vasitəsilə beynəlxalq təhlükəsizliyini təmin edir;

• ikincisi, siyasi təhlükəsizlik: dövlətin möhkəmləndirilməsi, demokratiyanın genişlənməsi, vətəndaş cəmiyyətinin yaradılması;

• üçüncüsü, iqtisadi təhlükəsizlik: xalqın həyat səviyyəsinin yüksəldilməsi;

• dördüncüsü, ekoloji sahədə: millətin sağlam təbii mühitdə yaşamasının təmin ediməsi;

• beşincisi, demoqrafik təhlükəsizlik: əhalinin qanunauyğun təbii artımının təmin edilməsi, sağlamlığının qorunması;

• altıncısı, hərbi təhlükəsizlik: təcavüzkarlığın qarşısını almaq üçün ordunun, hərbi-hava, hərbi-dəniz qüvvələrinin gücləndirilməsi, hərbi kadrların hazırlaması, ordudan daxili siyasi məsələlərdə istifadə edimməməsi, ölkənin müdafiəsini təmin etmək üçün hərbi müqavilələr bağlamaq imkanından istifadə edilməsi;

• yeddincisi, milli dilin, dinin, əxlaqın, mədəniyyətin, adət və ənənənin yad təsirlərdən mühafizə edilməsi [11, 39].

Müəllif, göründüyü kimi, milli təhlükəsizliyin strukturuna daha çox elementəri aid etmişdir.

Rus tədqiqatçısı P.Sıqankovun qənaətincə, milli təhlükəsizliyin əsas təminatı dövlətdir: dövlətin əsas vəzifəsi ölkənin suverenliyini və ərazi bütövlüyünü qorumaqdır. Dövlət daxli və xarici sabitlik yaratmaqla milli təhlükəsizliyi təmin edir, ölkənin və insanların tərəqqisinə nail olur [12, 40].

Milli təhlükəsizliyin kateqorial əsasları

Azərbaycan tədqiqatçıları, milli təhlükəsizlik üzrə bir çox elmi əsərlərin müəllifləri C.Qasımov və N.Nağıyev "Milli təhlükəsizliyin əsasları" əsərində milli təhlükəsizliyə aid kateqoriyalar sistemindən bəhs edərək yazrlar: "Ümumilikdə milli təhlükəsizlik nəzəriyyəsinin kateqoriyaları bazasına milli maraqlar, dövlət, hakimiyyət, geosiyasət, konflikt, siyasi strategiya, ordu, daxili təhlükəsizlik, xarici təhlükəsizlik, siyasi təhlükəsizlik, iqtisadi təhlükəsizlik, hərbi təhlükəsizlik, informasiya təhlükəsizliyi, mənəvi-mədəni təhlükəsizlik, ekoloji təhlükəsizlik, şəxsiyyətin təhlükəsizliyi, cəmiyyətin təhlükəsizliyi, dövlətin təhlükəsizliyi, sabitlik, hərbi-siyasi tarazlıq, milli təhlükəsizlik sistemi, təhdid, beynəlxalq təhlükəsizlik və s. kateqoriyalar daxildir. Qeyd edilən kateqoriyalar sistemi milli təhlükəsizlik nəzəriyyəsinin tədqiqat predmeini özündə əks etdirir" [13, 42].

Tədqiqatçılar milli təhlükəsizlik sisteminə daxil olan kateqoriyaları – milli maraqlar, onların mahiyyəti, təsnifi, Azərbaycanın milli maraqları, milli təhlükəsizliyə təhdidlər, terrorizm, narkotizm və s., Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin olunması, ölkənin milli təhlükəsizlik konsepsiyası, dəniz təhlükəsizliyi strategiyası, kəşfiyyat və əks-kəşfiyyat, DTX, respublikanın milli təhlükəsizliyinin təmin olunması sisteminin vəzifələri, məqsədləri, onu təmin edən qüvvələr və dövlət orqanları, siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, təhsil, mədəniyyət, mənəviyyat, beynəlxalq təhlükəsizliyini hərtərəfli və dərin təhlil edərək Azərbaycanın milli təhlükəsizlik sisteminin formalaşması və inkişafında Ulu öndər Heydər Əliyevin rolunu da ətraflı şərh etmişlər. C.Qasımov və N.Nağıyev mili təhlükəsizlik anlayışının yaranması və inkişafı barədə yazırlar: "Bu gün leksikona və həyata, müasir cəmiyyətə və dövlətçiliyə sıx şəkildə daxil olan "milli təhlükəsizlik" anlayşı heç kimdə şübhə doğurmur.

Milli təhlükəsizlik – ölkənin milli maraqlarının, geniş mənada, yəni, sosial, iqtisadi, hərbi, ekoloji aspektlərin, xarici iqtisadi fəaliyyətin, kütləvi qırğın silahlarının yayılması, eləcə də xalqın mənəvi və intellektual dəyərlərinin məhv edilməsi təhdidi ilə bağlı risklər də daxil olmaqla qorunması deməkdir.

Milli təhlükəsizlik sosial-fəlsəfi kateqoriyadır və onun əsasında insana layiqli həyatı təmin edən sabit sosial inkişaf dayanmalıdır. Məhz belə bir yanaşmada o, cəmiyyətin və şəxsiyyətin maraqlarını, əxlaqi və mənəvi dəyərləri müdafiə edəcək, həmçinin əhalinin geniş təbəqələri tərəfindən başa düşüləcək, dəstəklənəcək və ümummilli iş olacaqdır.

Milli təhlükəsizlik strategiyasının hazırlanması və reallaşdırılması da milli təhlükəsizlik sistemində mühüm yer tutur. "Strategiya dövlətin, cəmiyyətin və şəxsiyyətin həyati mənafelərinə qarşı yönəlmiş təhlükələrin aradan qaldırılması imkanlarından, mövcud qüvvələr, vasitələr, forma və metodlardan istifadə etmək sahəsində konkret seçimdir" [8, 30-31].

Azərbaycanın təhlükəsizlik problemi, onun təmin edilməsi yolları və vasitələri, qlobal və yerli təhlükəsizlik maraqlarının uzlaşdırılması, region dövlətlərinin təhlükəsizlik siyasəti dövlət başçısı İlham Əliyevi ciddi şəkildə düşündürən məsələlərdəndir. Bu da təsadüfi deyildir – Azərbaycan Şərqlə Qərbin, Avropa ilə Asiyanın kəsişdiyi mühüm nəqliyyat-kommunikasiya dəhlizlərinin keçdiyi əhəmiyyətli geosiyasi və geoiqtisadi məkanda yerləşir. Əhəmiyyətli ərazi, geostrateji və geoiqtisadi üstünlüklərdən ölkənin milli maraqları çərçivəsində bəhrələnmək xarici siyasət və milli təhlükəsizlik idarələrinin qarşısında strateji vəzifə kimi durur [14].

Azərbaycan hakimiyyətinin qətiyyəti, xalqa dərin inamı, hər bir məsələdə milli maraqları önə çəkməsi sayəsində respublikamızın xarici siyasəti ölkənin milli maraq və təhlükəsizliyinə qarşı yönələn istənilən təhdidə çevik müqavimət göstərir.

Nəticə

Beləliklə, Azərbaycan alimləri milli təhlükəsizlik sistemini tədqiq edərək onun kateqorial aparatını yaratmışlar.

- Milli təhlükəsizlik mürəkkəb, çoxsəviyyəli, dinamik sistem olub, əsasında sosial subyektlərin şəxsiyyət, cəmiyyət və dövlətin baza münasibətləri durur. Bu sistem bir çox amillərin – tarixi, coğrafi, etnik, demoqrafik, sosial-siyasi, iqtisadi, mədəni, dini amillərin təsiri altında formalaşır.
- Dövlətin milli maraqları xarici siyasət sahəsində (beynəlxalq) və daxili siyasət sahəsində (iqtisadi, sosial, mənəvi, hərbi və s.) maraqlara bölünür. Milli maraqlar sosial əhəmiyyətinə görə üç qrup marağında birləşir: həyati vacib maraqlar, vacib maraqlar və sadəcə maraqlar.
- Milli maraqların dərk olunmasına milli dəyərlər təsir edir. Milli dəyərlər millətin mövcudluğu üçün müəyyən mənəvi və maddi rifah əhəmiyyəti kəsb edən fundamental normalardır.
- Milli maraqların ierarxiyası milli məqsədlərin sistemini müəyyən edir. Milli məqsədlər – milli maraqların reallaşması və müdafiəsinə dair dövlətin, cəmiyyətin və ayrı-ayrı vətəndaşların fəaliyyətində əsas istiqamətlərdir.
- Qloballaşma prosesləri beynəlxalq, milli və regional səviyyələrdə qarşılıqlı asılılığı gücləndirir. Nəticədə insanın, cəmiyyətin vəhdətinin, eyni zamanda bütün dünya üçün təhlükəsizliyin ümumi qlobal probleminin vəhdətinin dərk olunması zərurəti yaranır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası: //http://eqanun.az
2. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, “Zərdabi LTD”, 2016, 700 s.
3. Политическая энциклопедия. – М., Мысль. Т-1, 2000, 750 с.
4. Niyazov X. Milli təhlükəsizliyin optimal modeli, “Azərbaycan” qəz., 10 iyul 2007.
5. Həsənov Ə. Milli təhlükəsizlik siyasəti dövlət təhlükəsizlik siyasətinin tərkib hissəsi kimi //strategiya az.//http://az.strategiya.az.old/index.rhin?m=xeber-in=4795.
6. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı: BDU, 2002, 534 s.
7. Milli güvenlik siyaseti ve strategiyası, İstanbul, IHA, 2001, s.57.
8. Xəliliov C. Milli təhlükəsizlik milli mənlik şüuru kontekstində. Bakı,Vətən, 2006, s. 30-31.
9. Məmmədov N. Geosiyasətə giriş. İki cilddə. II cild. Bakı: Azərbaycan, 2011, 416 s.
10. Həşimov D. Siyasi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi kimi (Azərbaycan Respublikasının materialları əsasında). Siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2010, s.102.
11. Piriyev A.Siyasi strategiya və milli təhlükəsizlik məqsədi. Bakı, BDU nəşr-tı, 2005, 544 s.
12. Политология. Энциклопедический словарь. Москва: Политиздат, 1993, 431с.
13. C.Qasımov, N.Nağıyev. Milli təhlükəsizliyin əsasları. Bakı, MTNA, 2015, 407 s.
14. Niyazov X. Milli maraqlara söykənən qətiyyətli mövqe. “Azərbaycan” qəz., 05 iyun 2009.

Açar sözlər: *milli təhlükəsizlik, milli maraqlar, milli dəyərlər, milli təhlükəsizlik strategiyası, dövlət təhlükəsizliyi.*

Ключевые слова: *национальная безопасность, национальные интересы, национальные ценности, стратегия национальной безопасности, государственная безопасность.*

Keywords: *national security, national interests, national values, national security strategy, public safety.*

РЕЗЮМЕ

Национальная безопасность является одним из важнейших факторов, обуславливающих преуспевающее, свободное и безопасное проживание народа.

Основополагающую цель политики национальной безопасности определяет необходимость достижения государственной независимости и территориальной целостности Азербайджана, конституционного становления, прав граждан, гражданского и национального единства общества.

Азербайджан, благодаря своей сбалансированной внешней политике, не только достиг решения вопроса в области безопасности, а также на сегодняшний день выступает в качестве гаранта субрегиональной интеграции и энергетической безопасности на евразийском пространстве.

Как известно, основной целью политики любого государства является обеспечение безопасности. Государство на основе историко-политического опыта разрабатывает концепцию внешней политики, в которой вопрос национальной безопасности занимает одно из значимых мест. Основным гарантом национальной безопасности является государство, основной обязанностью которого выступает защита суверенитета и территориальной целостности страны.

Вопрос безопасности Азербайджана, а также пути достижения этой безопасности, координация глобальных и региональных интересов в данной сфере, политика безопасности стран региона, составляют основу внешней и внутренней политической стратегии страны.

SUMMARY

National security is one of the most important factors that stipulate a prosperous, free and safe life of people.

The fundamental goal of the national security policy specifies the need to achieve national independence and territorial integrity of Azerbaijan, establishment of constitutional rights of citizens, civil society and national unity.

Azerbaijan, due to its balanced foreign policy, currently not only reached a decision in the field of security issue, but also serves as a guarantor of sub-regional integration and energy security in Eurasia.

As known, the main purpose of the policy of any government is security. The state on the basis of the historical and political experience elaborates the concept of foreign policy, in which the issue of national security holds a specific place. The primary guarantor of national security is the State, the main duty of which serves to protect the sovereignty and territorial integrity of the country.

The issue of security of Azerbaijan, as well as the ways to achieve this security, coordination of global and regional interests in this area, the region’s security policy, form the basis of internal and external political strategy of the country.

XƏZƏR HÖVZƏSİNİN GEOİQTİSADİ XARAKTERİSTİKASINA SİYASİ NƏZƏRİ BAXIŞ

RUFİZ QONAQOV
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

Üçüncü minilliyə qədəm qoymuş dünyanın müxtəlif məqsəd və məramlı "beyin" güclərinin Avropa ilə Asiyanın kəsişmə bucağında yerləşən məkanda geosiyasi və geoiqtisadi maraqlarından bəhs edərkən, hansı proseslərin diqqəti cəlb etməsi məsələsi aktuallıq kəsb edir. İlk öncə enerji ehtiyatlarının çoxçeşidliliyi ilə fərqlənən Xəzər hövzəsi ətrafı dövlətlərin, eləcə də Şərq-Qərb və Cənubla Şimalın geosiyasi beynəlxalq əlaqələri, həmçinin siyasi, iqtisadi, hətta mədəni və s. qarşılıqlı münasibətlərinin öyrənilməsi zərurəti meydana çıxır. Araşdırdığımız mövzuda məhz bu kimi münasibətlər kontekstində Azərbaycanın da bir Xəzəryanı dövlət kimi mövqeyi, enerji resurslarından istifadə imkanlarının vəziyyəti məsələsi durur. Təbii ki, Xəzər regionu, onun enerji resursları, ilk əsasda isə neft-qaz faktoru, transmilli münasibətlərdə qarşılıqlı əlaqələri regionu məhz dünyanın müxtəlif geosiyasi institutlarının – güc mərkəzlərinin hədəf nöqtəsinə, ən əsas isə geoiqtisadi maraqlar mərkəzinə çevirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycanın Xəzər nefti" kitabında yazdığı kimi: "Geosiyasət hələ öz əhəmiyyətini qoruyub saxlayır, lakin onun geoiqtisadiyyat tərəfindən sıxışdırılıb aradan çıxarılması meyili müşahidə olunur. İqtisadi amilin fonunda siyasi prioritetlər və hərbi təhlükəsizlik müəyyən dərəcədə ikinci plana keçir. Müasir mərhələdə geoiqtisadiyyat" öz sələfi "geosiyasəti bir çox aspektlərdə ötüb keçmişdir, xüsusilə məkan nöqteyi-nəzərdən onlar eyni bir istiqamətdə qovuşurlar. Bu kontekstdə Azərbaycanın nümunəsi maraq doğurur. Burada geoiqtisadiyyatın geosiyasi reallıqla (qlobal və milli təhlükəsizlik nöqteyi-nəzərindən dünya geoiqtisadiyyatının dərk olunması) qovuşmasının şərti meyarı enerji ehtiyatları, əsasən neft və onunla əlaqədar olan siyasi reallıqlardır." [1;7]

Məhz diqqətimizi çəkən də Prezident İlham Əliyevin "geoiqtisadiyyat" və "geosiyasət" terminlərini bir vəhdətdə açıqlamasıdır. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev fikirlərinə davam edərək yazır: "Azərbaycanın bugünkü şəraitində Xəzər dənizinin neft ehtiyatlarına geostrateji yanaşma amilinin fərqlənməsinin zərurətə çevrildiyi regionda baş verən geosiyasi proseslərdə öz əksini tapmışdır. Neft sayəsində, ehtiyatı bir neçə milyard barrel neftlə dəyərləndirilən Azərbaycan onun karbohidrogeninə daxil olmaq üçün rəqabət aparan dünyanın aparıcı güclü dövlətlərinin yenidən diqqət mərkəzində durdu"[1;7].

Bu mənada müasir qloballaşma dövründə dünya ölkəkərinin həyati tələbləri içərisində enerji daşıyıcılarının, xüsusən neft və neft məhsullarının əldə edilməsi əsas və mühüm yer tutur. Bu nöqteyi nəzərdən də Əli Həsənovun göstərdiyi kimi: "yer kürəsinin neft ehtiyatları və bu ehtiyatların məkanı(ərazi mənsubiyyəti) müasir dünyada transmilli mahiyyət kəsb edərək həm planetin inkişaf etmiş sənaye dövlətləri, həm də neftin sahibi olan ölkələrin milli maraqları baxımından strateji əhəmiyyət kəsb edir".[2;654.] Bu mənada da "neft sahibi olan ölkə kimi" problemi siyasi-tarixi və nəzəri kontekstdə nəzərdən keçirək. Keçmiş SSRİ dağıldıqdan sonra Xəzər regionunda beş dövlətin-Rusiya, Qazaxıstan, Türkmənistan, İranın və Azərbaycanın neft və qaz hasil etmək imkanları yarandı. Bu Xəzərətrafı dövlətləri geoiqtisadi baxımdan enerji daşıyıcılarının iqtisadi dəyərini yaxşı dərk etdilər. Lakin o zaman heç kəs düşünmürdü ki, gələcəkdə Xəzər hövzəsinin neft və qaz ehtiyatları Yaxın Şərqdəki enerji mənbələri yataqları ilə rəqabət gücünə malik olacaq və bu məsələ məhz yuxarıda adlarını sadaladığımız beş dövlətin əsas "bölünməz" payına çeviriləcək.

Bu baxımdan ilk öncə biz mövzumuzun siyasi təhlil obyekti olan "geosiyasət" termininin açılmasına nəzər salaq. Belə ki, R.Mehdiyevin rəhbərliyi ilə nəşr olunan"Politologiya izahlı lüğəti"ndə yazılıb: "Geosiyasət" (yunanca "geo" torpaq, "politike" siyasət deməkdir) dövlətin fiziki və sosial, maddi və mənəvi ehtiyatlarını məcmu halında öyrənən elmdir. Geosiyasətin mənşəyi onun siyasi coğrafiyadan ayrılması ilə əlaqələndirilir. Burada siyasi coğrafiya dövlətin inkişafı gedişindəki dəyişikliklərin statik təsviri ilə qənaətlənir. Geostrategiya isə özünü konkret vəziyyəti nəzərə alan və qiymətləndirən fenomen kimigöstərir və daima gələcəyə istiqamətlənmişdir. Geosiyasət dövlətin xarici siyasəti işlənib hazırlanarkən istifadə olunan və coğrafi, demoqrafiq, ekoloji və digər amillərin nəzərə alınmasına təkan verən bir vasitə kimi başa düşülür".[3,120] Digər bir nəzəri lüğətə müraciət edək. Belə ki, "Fəlsəfə" ensiklopedik lüğətində bu anlayış "geopolitika" kimi verilmiş, yenə də geo-yer anlayışında, politike-dövləti idarə etmək məharəti kimi yazılmışdır. "Geopolitika" birinci dünya müharibəsi ərəfəsində meydana gəlmişdir. Alman coğrafiyaşünası F.Ratsel dövlətləri "yaşayış məkanı" uğrunda mübarizə aparan orqanizmlər kimi nəzərdən keçirmişdir. X.Makginder (İngiltərə), admiral A.Mexen (ABŞ) imperialist ekspansiyasının müdafiəçiləri idilər. "Geopolitika" anlayışı ilk dəfə İsveç dövlətşünası R.Çellen tərəfindən elmə gətirilmişdir. Bu elm 2-ci dünya müharibəsindən

sonra ABŞ, Kanada, xüsusilə AFR-də (K.Smitt, Q.Qrimm, A.Hettner, A.Qrabovski və b.) tədqiq edilmişdir. Hazırda geosiyasət mərkəzi vəzifəsini dövlətlərarası imperialist birliklərinin və bloklarının zəruriliyinin əsaslandırılmasında, Şərq və Qərb arasındakı ("kontinental" və "dəniz sivilizasiya tipi arasında") əksliyin coğrafi cəhətdən şərtləşməsinin sübut edilməsində görür. [4,240] Biz "geosiyasət" anlamına nəzər yetirərkən məhz "dəniz sivilizasiya tipi arasında" məhfumu ilə geoiqtisadiyyat termini arasında vəhdəti öyrənməyə cəhd edək. Məhz bu baxımdan da araşdırdığımız mövzuya siyasi-nəzəri baxış zəminində diqqət yönəldək. Bəs "geoiqtisadiyyat" nə deməkdir? "Geosiyasət" anlayışı nəyi ehtiva edir? məsələsinə toxunduqsa, belə olan surətdə "geoiqtisadiyyat" anlamına da nəzər yetirək.

Daha sonra müəllif yazırdı ki, "Bolşeviklər və müsavatçılar başa dü-şürdülər ki, gec-tez onlar arasında ölüm-dirim mübarizəsi başlayacaq və hər ikisi öz qələbəsini təmin etmək üçün tədbirlər görürdü" [8, 68]. Bakıda güclənmək, az sonra bütün qəzalarda Sovet hakimiyyətini qurmaq üçün Bakı Soveti qüvvələri qarşısında duran mühüm vəzifələrdən biri silahlı ordu birləşmələri təşkil etmək və dağıdılmış ordu hissələrini bərpa etmək üçün birinci dünya müharibəsi cəbhələrindən qayıdan başıpozuq rus əsgərlərini bir yerə yığmaqdan ibarət idi. Digər tərəfdən Bakı Soveti rəhbərliyi etibarsız saydıqları azərbaycanlı fəhlələri silahlandırmaqdan ehtiyat edirdilər. O biri tərəfdən də azərbaycanlılar ermənilərin silahlandırılmasına meyilli olan Sovet rəhbərliyinə öz etirazını bildirirdilər. 1905-1906-cı illərdə Bakıda baş verən qırğının acı nəticələri hələ aradan qaldırılmamış və unudulmamışdı. Ona görə də Bakı Soveti rəhbərliyi silahlı qüvvələrin təşkilinə xüsusi diqqət yetirirdi. Müəllif bununla bağlı yazır: "Bakı daimi milli iğtişaş qorxusu ilə yaşayırdı. Şaumyan başda olmaqla qüvvələr Qafqaz cəbhəsindəki ordunun bölünməsi ilə Azərbaycanda rusların kökünün kəsilməsi ilə nəticələnəcəyini fikirləşirdilər. Silahlı qüvvələrin yaradılması Soveti qayğılandıran birinci məsələ idi. Sovetlər Qırmızı qvardiyanı yaradarkən güclü müqavimətlə qarşılaşdılar, ancaq buna baxmayaraq, öz planlarını həyata keçirtdilər [8, 68]. Müəllif fikrini əsaslandırmaq üçün S.Şaumyana istinad edərək yazır: "Ordunun yaradılması haqqında əmr vermək, onu yaratmaqdan asan idi. Sovetin qüvvələri Müsavatın və Daşnaksütyunun qüvvələri ilə müqayisədə çox az idi. Daşnaklar 1917-ci ilin axırlarında Qafqaz cəbhəsindən qayıdan minlərlə rus əsgərlərindən aldığı böyük miqdarda silahlarla çox yaxşı təchiz olunmuşdu. Bundan başqa daşnaklar Rusiya ordusunda xidmət edərkən və Osmanlıda həyata keçirtdikləri partizan əməliyyatlarında hərbi təcrübə qazanmışdılar. Azərbaycanlılar təxminən ermənilər kimi silahlansalar da, ermənilərlə müqayisə ediləcək təşkilata və təcrübəyə malik deyildilər" [8, 68]. Doğrudur, müəllifin "Daşnaksütyun" qüvvələri ilə bağlı fikirlərinə dövrün digər tarixçilərinin əsərlərində də rast gəlmək mümkündür. Amma maraqlısı budur ki, Osmanlı ərazisində böyük təcrübə toplayan və yerli əhalinin qırılmasında ad çıxaran daşnakların hərəkətlərinin ön plana çəkilməsi böyük əhəmiyyət kəsb edir. Belə ki, erməni qüvvələrinin Osmanlı ərazisində törətdikləri milli qırğınları inkar etmək üçün bolşevik tarixçiləri də uzun müddət səy göstərmişdilər. Bakıda və ətraf qəzalarda müsəlman əhalisinə qarşı soyqırımın təşkilatçısı Stepan Şaumyan və oğlu Suren etiraf edirdilər. Məhz buna görə də vəziyyətin çətinliyini anlayan S.Şaumyan I.V.Stalinə göndərdiyi məktubunda Qafqazdakı Qırmızı qoşunların ehtiyacını ödəmək üçün 10 milyon rublun ayrılmasını xahiş etmişdi.

Müəllifin Bakı və Bakı ətrafında baş verən hadisələrlə bağlı əsər boyu irəli sürdüyü iki cəhət diqqəti cəlb edir: Birincisi, bolşeviklərlə "Müsavat" arasında mübarizədə yerli xalqın daha çox kimi müdafiə etməsi etiraf edilir. Ancaq bununla yanaşı müəllif real bir faktı təsdiq etmək istəmir ki, Müsavat partiyası milli məfkurəli bir partiya idi və yerli xalqın mənafeyini müdafiə edən bir siyasi təşkilat kimi çıxış edirdi. Bakıda fəaliyyət göstərən partiyaların əksəriyyəti Bakıya müsəlman şəhəri kimi baxmır və ya bu şəhəri Azərbaycan şəhəri kimi qəbul etmirdilər. İkincisi, hakimiyyət uğrunda mübarizədə müəllif

hər üç partiyaya (müsavat, daşnak, bolşevik) eyni münasibəti bildirir. Şaumyanın bolşevik və daşnak partiyaları arasında yaratmış olduğu əlaqələri açmaqda xəsislik edir. Əksinə, müəllif yazır: "Müsavat" gücləndikcə, onun Sovetlə münasibətləri pisləşirdi. 1917-ci ilin aprelində çağırılan Transqafqaziya müsəlmanlarının qurultayı zamanı qəbul edilən sənədlər bu iki partiya arasında münasibətləri gərginləşdirdi. Yanvarda bolşeviklər "Müsavat"ı dağıtmaq məqsədi güdən addımlar atmağa başladılar" [8, 69]. Bolşeviklər "Müsavata" hücüm etməyin ən asan yollarından birini tətbiq etdilər. Yəni onu milli iğti-şaşlara təhrik etmək və əksinqilabi mövqe tutmaqda suçladılar. Bu cür taktika bolşeviklərə arzuolunan nəticələri verə bilərdi. Ancaq bolşeviklər ehtiyatı əldən vermir, ermənilərı müdafiə etdiklərini ört-basdır edə bilirdilər. Sovetdə olan çoxsaylı ermənilər və ruslar başa düşürdülər ki, onların antimüsəlman siyasəti Azərbaycan əhalisinin "Müsavat" ətrafında daha sıx birləşməsinə gətirib çıxaracaqdır. Ermənipərəst görünməmək üçün bolşeviklər bu mətbuat orqanlarında həm "Müsavat"a, həm də "Daşnaksütyun"a hücum edirdilər. 30-cu illərin bolşevik tarixçilərindən olan Y. Ratqauzer yazırdı: "Bakıda iki böyük düşmən düşərgəsi üz-üzə dayanmışdı. Bunlar Müsavat və Daşnaksütyun partiyalarıdır. Şəhərin demokratik qüvvələri bu iki patiyanı zərərsizləşdirməsə, onda əksinqilabi təşkilatlar fəhlə sinfini silahlandıraraq onları bir-birinə qarşı qoyacaq və özlərinin çürük milli binalarını fəhlə hərəkatının xarabalıqları üzərində qurmağa çalışacaqlar. Toqquşma qaçılmazdır" [9, 128]. F.Kazımzadə yazırd; "Ilk nəzərdən "Müsavat"a və "Daşnaksütyun"a hücum eyni xarakter daşıyır. Əslində isə, bu aldadıcı təbliğat idi. Sovetin bütün fikri "Müsavat"ı məhv etməyə yönəlmişdi. Sovet bu iki güclü rəqibə eyni zamanda qalib gələ bilməzdi. Sovet azərbaycanlılarla ermənilər arasında milli münaqişəni qızışdırmaq və bir xalqdan digərinə qarşı istifadə etmək qərarına gəlmişdi" [8, 69]. Doğrudur, müəllifin bir çox mülahizələrini qəbul etmək olmur. Ona görə ki, müəllif bu fikirlərin bir çoxunu sovet tarixçilərinin əsərlərinə istinadən irəli sürür. Digər tərəfdən, müəllif "Daşnaksütyun" ilə "Müsavat" arasında hakimiyyət uğrunda mübarizədə fərqi görmür və ya görmək istəmir. "Müsavat" öz torpağında hakimiyyət uğrunda mübarizə apardığı halda, "Daşnaksütyun" "böyük Ermənistan" yaratmaq uğrunda qanlı müharibə aparır və qonşu torpaqlarının bu əraziyə qatılmasına çalışırdı. F.Kazımzadə yazır: "Sovet və "Müsavat" arasında kulminasiya nöqtəsinə çatan mübarizə mart hadisələri ilə başa çatdı. Bu hadisələrdə Daşnaksütyunun rolu, Transqafqaziyanın sonrakı tarixi üçün mühüm əhəmiyyət kəsb edir və buna görə də bəzi hadisələri detalları ilə araşdırmağa ehtiyac vardır" [8, 69].

F.Kazımzadənin bəhs etdiyimiz əsəri haqqında fikrimizi yekunlaşdırarkən bəzi məqamlara diqqət yetirək. Əvvəla, müəllifin bu əsəri xarici tarixşünaslıqda Qafqaz tarixi ilə bağlı işıq üzü görən ilk əsərlərdən biridir. Ikincisi, vətən tarixşünaslığında Bakı Xalq Komissarları Sovetinin tarixi parlaq səhifələrdən biri kimi təsvir olunsa da, müəllif bir çox tarixçilərin əsərlərinə münasibət bildirməklə Bakı Sovetinin tarixi ilə bağlı əsl həqiqəti üzə çıxarmağa cəhd göstərmişdir. Üçüncüsü, müəllif bir çox tarixi həqiqətləri üzə çıxarmaqla, əslində, vətən tarixçilərinin tədqiqatlarını sual altında qoymuşdur: 1918-ci ilin martında Bakı şəhərində vətəndaş müharibəsi, yoxsa mart soyqırımı baş vermişdir? Ədalət naminə qeyd etmək lazımdır ki, həyatında Azərbaycanı görməyən, yalnız soyadına görə bizə yaxın olan F.Kazımzadənin hadisəyə "mart qırğını", ömrü boyu Azərbaycanda yaşayan və bu xalqın övladı adını daşıyan yüzlərlə tarixçinin isə "vətəndaş müharibəsi" ifadələrini tariximizə gətirməsi kimin bizə daha yaxın və real tarixə sadiq olduğunu əyani göstərir.

ƏDƏBİYYAT

1. Abbasov Ş. 26 Komissar. Bakı: Azərnəşr, 1937, 24 s.

2. İsgəndərov A.C. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarix-şünaslığı 1918-1920. Bakı: Adiloğlu 2006, 391 s.

3. İsgəndərov A.C. Azərbaycan həqiqətləri 1917-1920. Bakı: Elm və təhsil. 2012, 226 s

4. İsgəndərov A.C. 1918-ci ildə Şamaxı qəzsında həyata kecirilən soyqırımı. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu Elmi Əsərlər. "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920)" mövzusuna həsr olunmuş III beynəlxalq elmi konfransın materialları. Xüsusi buraxılış. 2015, 56,57, 58, 621s.

5. Əzizyan A. 26 Bakı komissarının xatirəsi/Azərbaycan qadını jurnalı.1938, № 8, s. 7-9 (latın əlifbası ilə).

6. Qazıyev M. Kommunizm uğrunda mübriz döyüşçülər/Təbliğatçı jurnalı, 1939, № 2, s. 5-13

7. Henry Barby. Le debacle russe: les extravagances Bolcheviques et l'epopee Armenienne. Paris: A. Michel, 1921, 261 p.

8. Kazemzadeh F. The Struggle for Transcaucasia (1917-1921). New York: Phi-losophical Library, 1951, 354 p.

9. Ратгаузер Я.А. Революция и гражданская война в Баку. Ч.1: 1917-1918 гг. Баку: Красный Восток, 1927, 222 с.

Açar sözlər: *Anti-azərbaycan siyasəti, Bakı Kommunası, milli istiqlal, xarici tarixşünaslıq.*

Ключевые слова: *Анти-азербайджанская политика, Бакинская Коммуна, национальная независимость, зарубежной историографии.*

Keywords: *Anti-azerbaijani politics, the Baku Commune, national Independence, foreign historiography.*

РЕЗЮМЕ

Анализ зарубежной историографии показывает, что искаженные в отечественной историографии факты о Бакинских Народных Комиссарах нашли свое подлинное отражение в зарубежной историографии. В то время как отечественные историки руководствуясь большевистской концепцией политику Бакинских Народных Комиссаров описывали как беспорочную и правую, зарубежные историки, лидеры и идеологи Азербайджанской Демократической Республики, а также зарубежные авторы, которые стали свидетелями и даже участниками мартовских репрессий, объективно описывают эти события.

SUMMARY

An analysis of foreign historiography shows that many distorted moments about the history of The Baku Council of People's Commissars in the native historiography found their real reflection in the foreign historiography.

The native historians helding Bolshevik concept as the main described the policy of The Baku Council of People's Commissars impeccably and fairly although the liders and ideologians of the Azerbaijan Democratic Republic, or foreign authors who were witness and participante of the the genocide of March the relation to the problem as expected was objective.

Tarix

ŞİMALİ AZƏRBAYCANIN ZƏNGƏZUR BÖLGƏSİNİN ERMƏNISTANA BİRLƏŞDİRİLMƏSİ BÖYÜK DÖVLƏTLƏRİN VƏ QONŞU ÖLKƏLƏRİN QAFQAZ SİYASƏTİNDƏ

HACI ABDULLA
Azərbaycan Milli Elmlər Akademiyasının
Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu



1917-ci il 28 fevral burjua – demokratik inqilabı nəticəsində Rusiya imperiyasında çarizmin, Romanovlar sülaləsinin süqutu, I Dünya müharibəsində Rusiya və Almaniyanın ağır məğlubiyyətindən sonra Cənubi Qafqazda real söz, ixtiyar sahibi ingilislər oldu.

Əsasən, ingilis, fransız, italyanlardan ibarət koalisiya qüvvələrinin hərbçi və diplomatlarının təlimatı ilə hazırlanıb qarşıya qoyulan əsas məqsəd Rusiyanı Qafqazdan çıxarıb yenicə müstəqilliklərini elan etmiş 3 respublikanı Antantanın nüfuz dairəsinə daxil etmək, Bakı neftinə sahiblənmək idi. Xristian təəssübkeşliyinə söykənən böyük güclərin Osmanlı torpaqlarında ermənilərə verdikləri boşa çıxan vədi - müstəqil Ermənistan dövləti yaratmaq planlarını Cənubi Qafqazda reallaşdırmaq da əsas məqsədlərdən biri idi.

I Dünya müharibəsində məğlub olan Osmanlı dövləti 1918-ci il oktyabrın 30-da İngiltərə ilə Mudros sazişi imzaladı. Müttəfiqlərin razılığına əsasən, bu zaman İranın Ənzəli limanında olan ingilis hərbi qüvvələrinin komandanı, general Tomsona Bakını tutmaq əmri verildi. Öncə ingilis generalının tələbi ilə Osmanlı və Azərbaycan hərbi qüvvələri Bakını tərk etdilər. 1918-ci il noyabrın 17-də ingilis hərbi qüvvələri Bakıya daxil oldu. Tomsonun başçılıq etdiyi ingilis general-qubernatorluğu yarandı. Bakı şəhəri və onun neft mədənləri ingilislərin nəzarətinə keçdi. İlk əmri Azərbaycan bayrağının endirilməsi barədə oldu. Bakını rus şəhəri hesab edən Tomson burada işğal rejimi yaratdı, polis, liman, neft sənayesi, maliyyə idarələri, mətbuat üzərində nəzarət qoydu.

Böyük Britaniyanın Hərbi naziri Çörçill 1919-cu il martın 6-da Qafqazla bağlı bir konfransda demişdi: “Heç şübhə yoxdur ki, Rusiyanın gələcək hökuməti bu regiona (Qafqaza-H.N) yenidən qayıdacaqdır, indiki fasilə məqamında baş verənlər əsas problem deyil, lakin Britaniya qoşunları o ərazilərdə nə qədər çox qalacaqsa, bizim caynağımız bir o qədər dərinə işləyəcəkdir.”

1917-ci ildə Rusiyada oktyabr inqilabından sonra, bolşeviklərə qarşı “14 dövlətin yürüşü” planının müəllifinin bu uzaqgörənliyini, ingilis diplomatiyasının gücünü, anlamaq üçün bp şirkətinin Azərbaycana-Xəzər regionuna gəlişi və burdakı fəaliyyəti, mənfəətlərini yada salmaq kifayətdir.

Ermənilər Osmanlı dövlətinin I Dünya müharibəsində məğlubiyyətini və Antantanın qələbəsini toy-bayram kimi qarşılamışdılar. Mudros barışığının (1918-ci il 30 oktyabr) onların ərazi iddialarının gerçəkləşməsində mühüm rol oynayacağını güman etmişdilər. Həmin barışığa əsasən, türk qoşunları Qafqazdan çıxmalı və 1914-cü il Rusiya-Türkiyə sərhədlərinə çəkilməli idi. 1918-ci ildə Türk qoşunlarının Azərbaycanı tərk etməsi yenidən Andranikin əl-qolunu açmışdı. “Daşnaklar Zaqafqaziyaya Ermənistandan girməyə başlayan Amerikanın agentləri idilər. “Böyük Ermənistan” ideyası bütün Qafqazı tutmaq üçün ABŞ-ın işini asanlaşdırmalı idi...”. (14)

Müstəqilliyini yeni elan etmiş Azərbaycan yenidən ciddi təhlükə qarşısında qaldı. Özünün milli hərbi hissələri olmayan Azərbaycan hökumətinin ingilis qoşunlarına hərbi müqavimət göstərmək imkanı yox idi. Yaranmış vəziyyətlə bağlı M.Ə.Rəsulzadə yazırdı: “Türk ordusu çəkilmiş, Azərbaycan hərbi hissələri isə yox idi… Fərzən qüvvə olsa belə, Almaniyanın, Türkiyənin təslim olduğu bir qüvvəyə qarşı Azərbaycanın hərb açması təbii ki, ağla belə gəlmirdi. Ona görə də məsələ yalnız diplomatik vasitələrlə həll ediləcəkdi”. (15)

Qafqazdakı ABŞ, Böyük Britaniya, Fransadan ibarət müttəfiqlər missiyasının başçısı general Tomsonla danışıqlar aparan N.Usübbəyov, Ə.Ağayev və M.Rəfiyevdən ibarət nümayəndə heyətinin səylərindən nəticə əldə edilməmişdi. F.Xoyski ilə general Tomsonun görüşü də çox mübahisəli və sərt olmuşdu.

O, Azərbaycan Cümhuriyyətini tanımadığını, rusların torpağına gəldiyini söylədi. Fətəli xan isə Azərbaycan xalqının qərarı və istəyi ilə Azərbaycan Cümhuriyyətinin və istiqlalının elan edildiyini və bunun bütün dünya dövlətlərinə bildirdiyini söyləyir. Sözlərinə davamla: "Siz böyük bir millət və böyük bir imperiyasınız. Eyni zamanda mədəni bir millətsiniz. Bizim istiqlaliyyətimizi tanımalısınız" - deyir. General Tomson da: "Bu söylədikləriniz siyasi şeylərdir və iki dövlət arasında cərəyan edər. Halbuki, mən bir əsgərəm" cavabını verir. Fətəli xan da: "Madam ki, siz əsgərsiniz, mən də istiqlaliyyətini elan etmiş Azərbaycan Cümhuriyyətinin baş naziriyəm. Biz sizi buraya dəvət etmədik. Sizdən ölkəmizi tərk etməyi tələb edirəm" deyir. Bu cavab qarşısında general Tomson tərcüməçiyə dönərək, "Baş nazir həzrətlərinə söyləyin ki, hər hansı bir hərbi qüvvəni çıxarmaq üçün hərbi qüvvəyə sahib olmaq gərək. Bildiyimə görə qurduğunuz Cümhuriyyətin ordusu hələ qurulmamışdır" deyir. Fətəli xan tərcüməçiyə: "General həzrətlərinə söyləyin ki, o yalnız hərbi birliyə malikdir. Ya xalq qüvvələrin nə olduğunu bilmir və ya hər xalqı Hindistan xalqı zənn edir. Biz Azərbaycan türkləri istiqlaliyyətimizi elan etməmişdən öncə 100 minə qədər rus əsgərini xalq qüvvələrimizin gücü ilə süpürüb sərhədlərimizdən kənara atdıq. Əgər inad edərlərsə, bir ovuc ingilis əsgərini dənizə tökmək qəhrəman xalqımızın gücü ilə bir neçə saatlıq məsələdir. Ancaq biz nə onlardan pislik görmək, nə də onlara pislik etmək istəyirik" - cavabını verir (5). AXC Hökumətinin tərkibi də general Tomsonla məsləhətləşmədən sonra elan edilir (12).

Vəziyyətin ağırlığı Azərbaycan hökumətini istiqlal fikrindən daşındırmağa vadar edə bilmədi. Beş aylıq fasilədən sonra 1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurası yenidən öz işinə başladı. Noyabrın 19-da Milli Şura Azərbaycan parlamentinin yaradılması haqqında qanun qəbul etdi. Qanunda göstərilirdi ki, yaranmış vəziyyətdə Azərbaycanın müəssisələr məclisini çağırmaq mümkün olmadığından Milli Şura ümumdövlət qanunverici orqana — Azərbaycan parlamentinə çevrildi.

Azərbaycan parlamentinin açılışına hazırlıq işləri zamanı general Tomsona aydın oldu ki, Azərbaycan hökuməti Bakıda xalq arasında dayağı olan yeganə real siyasi qüvvədir. Məhz bu dövrdən ingilis komandanlığının Azərbaycan hökuməti ilə yaxınlaşması başlandı. 1918-ci ilin dekabr ayının 26-da F. Xoyskinin başçılıq etdiyi hökumət təşkil olunduqdan sonra V.M.Tomson Azərbaycan hökumətini tanıdığını bildirdi (12).

V.M.Tomsonun bəyanatına görə, bütün Azərbaycan ərazisinin hüdudlarında F.Xoyskinin sədrliyi ilə yaradılmış Azərbaycan koalisiyon hökuməti yeganə qanuni hakimiyyətdir və müttəfiq ölkələrin hərbi qüvvələrinin komandanlığı bu hökumətə hərtərəfli yardım göstərəcəkdir.

İngilislərin bu himayədarlığı Azərbaycana ucuz başa gəlmədi. 1918-ci ili dekabrından 1919-cu ilin aprelinə qədər ingilislər Bakı - Batum kəməri vasitəsilə haqqı ödənilmədən Azərbaycandan 8405471 manat dəyərində neft və neft məhsulları apara bilmişdilər. Nəzərə alaq ki, bir o qədər də nefti Bakı Kommunası dövründə əvəzsiz olaraq Rusiya aparmışdı (14).

28 aprel 1920-ci il bolşevik Rusiyasının Qafqaza qayıdışına qədər bölgədə cərəyan edən bütün proseslərdə ingilislər əsas ssenari müəllifi, rejissor və baş rolun ifaçısı olmaqla bərabər, Azərbaycandan qoparılıb Ermənistana veriləcək torpaqların sərhədlərini də ilk dəfə ingilislər cızmışdılar. General Tomsonun Ermənistan hökumətinin rəhbərləri Xatisov və Tiqranyanla dialoqları da çox mətləblərdən xəbər verir. O, 1919-cu il martın 28-də İrəvanda Ermənistan hökumətinin iclasında çıxışında demişdi: "...Zəngəzur Erməni Milli Şurası tərəfindən idarə ediləcək...Dağlıq Qarabağın idarə edilməsi üçün Ermənistan təcili öz nümayəndələrini verməlidir... Erməni qoşunları Qars və Naxçıvanı, Şərur Dərələyəz-Sürməlini tuta bilər... Azərbaycan ordusu indi durduğu yerdən-Ağdam və Xankəndindən bu tərəfə keçməyəcək... Azərbaycan hökumətinin martın 19-da keçirilən iclasında qərar qəbul edilmişdir ki, Daxili İşlər Nazirliyi 1300 nəfərlik piyada və 500 nəfərlik erməni süvari dəstəsinin Şuşa, Xankəndi, Əsgərandan keçib Ermənistana getməsi üçün hərtərəfli səy göstərəcək. Mayor Monk Mezon mənə məlumat vermişdir ki, Azərbaycan hərbi hissələri general Mehmandarovun rəhbərliyi ilə onların sağ-salamat keçməsi üçün bütün tədbirləri görmüşdür... Azərbaycan Dağlıq Qarabağ və Zəngəzurun mübahisəli ərazi kimi Paris sülh konfransında həll olunacağını gözləyəcəkdir" (9).

Tomson Ermənistan hökumətinin rəhbərlərinə 5 milyon ədəd patron və pul da göndəriləcəyini də vəd etmiş, vədini də yerinə yetirmişdir. ABŞ prezidenti V.Vilsonun ermənilərə mərhəm münasibəti də hadisələrdə mühüm rol oynayırdı. "Daşnak ordusu Amerika çörəyi yeyirdi. ABŞ Ermənistana 50 min, İngiltərə 40 min, Fransa 30 min əsgər üçün geyim, ərzaq, hərbi sursat, 10 milyon patron vermişdi" (13).

Bu iclasdan 4 gün sonra - aprelin 2-də Gorusda Zəngəzur ermənilərinin qurultayı keçirilir və qərar qəbul edilir: "Azərbaycanın Ermənistanın bir hissəsi olan Zəngəzuru tutmaq cəhdlərinə qarşı silahla cavab verilsin".

Qurultayın qərarı ilə Yepiskop Vahan və Erməni Milli Şurasının üzvü Bahadurov Bakıya Müttəfiq Dövlətlərin Qafqazdakı baş təmsilçisi general Tomsonun yanına gəlir və Qarabağ ermənilərinin bu tələblərini ona yetirirlər: Qarabağın dərhal Ermənistana birləşdirilməsi və ya Qarabağın Paris sülh konfransına qədər Ermənistana birləşdirilməsi; Qarabağda yerli erməni idarəçiliyinin təşkil edilməsi və Qarabağda ingilis general-qubernatorluğunun yaradılması...

Tarixi ədalət naminə demək lazımdır ki, AXC hökumətində ingilis siyasətinə qarşı ən prinsipial, ardıcıl mübarizə aparan siyasətçi AXC-nin ilk hərbi naziri və Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov olmuşdur (6). O, ingilislərin bütün fəaliyyətlərinin ermənilərin xeyrinə olduğunu, ingilis siyasətinin Zəngəzur və Qarabağı Azərbaycandan qoparmağa yönəldiyini faktlarla, sübutlarla davamlı olaraq AXC Parlamenti və Hökumətinə bildirirdi.

Zəngəzur qəzası ingilislərin ermənilərə verdiyi top, pulemyotlarla, silah-sursatla tamamilə məhv edilməklə bərabər, vuruşmalarda iştirak edən, sayı on minə çatan nizami erməni ordusunun döyüş meydanında qalmış ölüləri arasında bir necə ingilis əsgərinin meyidinin olduğu da bildirilir.

Zəngəzuru qan içində boğan generallar Andronik, Dro və Njdenin də "ingilis casusu" olduğu, onlardan təlimat aldığı, ruslara qarşı da ingilislərin tapşırığı ilə savaşdığına dair çoxsaylı faktlar məlumdur (10).

Zəngəzurda erməni qoşun birləşmələrinin saysız-hesabsız qətliamları barədə AXC Hökumətinin Gəncə, Bakıdan Tiflisdə lövbər salmış Amerika, İngiltərə, Fransa, İtaliyanın Qafqazdakı hərbi və diplomatik missiya başçıları olan general Uodropa, polkovnik Reyo, polkovnik Nonakura, polkovnik Qabbaya ard-arda xahiş, notaları da, nəticəsiz qalan dişsiz bəyanatları da bunun sübutudur (1).

1919-cu il 23 noyabrda Tiflisdə Azərbaycan və Ermənistanın hökumət başçılarının Müttəfiqlərin ali komissarı - Birləşmiş Ştatlar

Ordusunun Baş qərargahının polkovniki Ceyms Reyin iştirakı ilə atəşi dayandırmaq barədə sazişinin mürəkkəbi qurumamış qaniçən erməni generalı Njdenin hücumları ağlasığmaz dəhşətlərlə, tükürpədən vəhşiliklərlə Zəngəzurun aşağı hissəsini də bütünlüklə qana bələdi. Azərbaycan xarici işlər naziri F.X.Xoyskinin Ermənistan XİN-ə göndərdiyi 10 dekabr 1919-cu il tarixli teleqramında göstərilirdi ki, Oxçu rayonunun kəndlərinin silah tutmağı bacaran kişiləri sülh yaratmaq bəhanəsi ilə karvansaraya dəvət edilmiş, onların hamısı əvvəlcədən yerləşdirilmiş dinamitlərlə partladılaraq öldürülmüşdür. Qocalar, uşaqlar və qadınlar isə məsciddə doğranmışdılar (Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımı. Sənədlər toplusu. 3 cilddə, II cild, I kitab). 1920-ci il yanvarın 3-də ermənilər Qərçivan kəndində yaşayan azərbaycanlılara qarşı növbəti vəhşilik törətdilər. Cəlladlar kəndin bütün əhalisini bir yerə yığaraq, uşaq və qadınlara belə rəhm etmədən qılıncdan keçirmişdilər (2).

İngilis jurnalisti Skotland-Liddell 1920-ci ilin qanlı yanvar günlərində Zəngəzura gəlib törədilən qırğınları şəxsən görüb yanvarın 30-da Tiflisdə bölgəyə səfərində gördüklərini "Müsəlmanlarla müharibə, ermənilər yenidən hücum edirlər" adlı məqaləsində vicdanlı obyektivliklə qələmə almışdır. İngilis jurnalisti yazırdı ki, "...hər iki hökumət tərəfindən Tiflisdə noyabrın 23-də müqavilə imzalanmışdı və bütün mübahisəli məsələlər böyük dövlətlər tərəfindən həll edilənədək hər iki tərəfin sülh şəraitində yaşayacağına ümid yaranmışdı. Lakin müqavilənin imzalanmasının ardınca ermənilər dərhal Azərbaycan ordusunun geri çəkilməsindən istifadə edərək Zəngəzurda qırxadək müsəlman kəndini darmadağın etdilər. ... doqquz müsəlman kəndini də Şuşa yolu üstündə darmadağın etmiş, əhalinin böyük əksəriyyətini isə vəhşicəsinə öldürmüşlər...Azərbaycan Hökuməti bununla bağlı etirazını bildirsə də, Ermənistan Hökuməti bu faktları rədd edən cavab aldı...Ermənistan ona görə bədbəxtdir ki, "Daşnaksütyun" partiyası orada qüvvədədir. Bu uzun illər erməniləri müsəlmanlara qarşı hücum etməyə sövq edən inqilabçı terror təşkilatıdır. Ermənilər bacarıqlı müntəzəm təbliğat vasitəsilə layiq olmadıqları həddə rəğbət qazanırlar. Ermənistan həmişə dava-dalaş axtarır və ona nail olanda təbliğat məqsədilə deyirlər ki, amandı qoymayın qırdılar bizi. Daşnak üçün öldürülmüş erməni daha əzizdir. Bundan istifadə edərək, ermənin ölüsü qalxıb haray – həşir təpir ki, ayə mən özüm ölməmişəm, məni müsəlmanlar öldürüblər...Londonda, Fransa, Birləşmiş Ştatlarda erməni büroları mövcuddur, onların ən sevimli metodu "xristian" sözündən istifadə etməkdir. İndi Zəngəzura hücum edən ermənilər özlərinin müvəqqəti uğurlarına şübhə etmirlər. Lakin gün gələcək ki, bütün müsəlmanlar bir nəfər kimi zülmkarlara qarşı qalxacaq və həmin gün gələndə heç nə erməni xalqını xilas edə bilməyəcəkdir" (11).

1920-ci ilin əvvəllərində daxili və xarici hərbi-siyasi durumu çox ağır olan və günü-gündən pisləşən AXC-nin Baş naziri 4 fevral 1920-ci il tarixdə Ermənistanın Baş naziri Xatisova ünvanladığı teleqramda yazırdı ki, "Zəngəzur müsəlmanlarının tamamən yox edilməməsi üçün" Azərbaycan Ordusundan "bir miqdar əsgəri qüvvə o bölgəyə göndərilmişdir və bu, 23 noyabr 1919-cu il anlaşmasına zidd deyildir" (3).

N.Nərimanov başda olmaqla Azərbaycan bolşeviklərinə Zəngəzurdan ağır miras buraxılmışdı, mövcud vəziyyət Zəngəzurun böyük bir hissəsinin Azərbaycandan qoparılmasına, Qarabağda erməni muxtariyyətinin yaradılmasına, əsrin sonlarında Azərbaycanın həmin faciələri bir daha yenidən daha ağır şəkildə yaşamasına təməl zəmin hazırladı.

ADR-in rəsmi elan edilməsinə və yaşamasına baxmayaraq, Rusiya Azərbaycanı öz mülkiyyəti hesab edir, Azərbaycan xalqının milli müqəddəratını təyin etmək hüququnu tanımaq istəmir, müxtəlif tələblər irəli sürür, təzyiqlər göstərirdi. Qatı millətçi daşnak Anastas Mikoyan bəyan etmişdi ki, Azərbaycanın müstəqilliyi haqqında söz ola bilməz (8).

1920-ci ilin yanvar ayının 11-də Paris sülh konfransında böyük dövlətlər Azərbaycanı de-fakto tanıdıqdan sonra V.İ.Lenin 1920-ci ilin mart ayının 17-də Qafqaz cəbhəsi hərbi inqilab şurasına göstəriş vermişdi ki, Bakını ələ keçirmək bizə son dərəcə zəruridir. Bütün səyinizi buna verin.

Azərbaycanın işğalını əsaslandırmaq məqsədi ilə Rusiya bu ölkəyə qarşı bir sıra təxribat xarakterli iddialar irəli sürdü. 1920-ci ilin yanvar ayının 18-də xarici işlər naziri Q.V.Çiçerin Azərbaycanı Denikinə yardım göstərməkdə ittiham etdi. Azərbaycanın Xarici işlər naziri F. Xoyski cavab notasında bu ittihamı böhtan adlandırmış və elan etmişdi ki, Azərbaycan neytral ölkədir, heç kimin daxili işinə qarışmır, Denikinlə heç bir əlaqəsi yoxdur. Nazir bəyan etmişdir ki, o, Rusiyanın hələ də Azərbaycanının müstəqilliyini tanımadığına təəssüflənir.

Rusiya Azərbaycanın Denikinə mənfi münasibətini bilirdi. O vaxt Azərbaycanın müstəqilliyi üçün Denikin Rusiya qədər təhlükəli idi. Hər iki tərəf Azərbaycanı işğal etmək, onun neftinə sahib olmaq iddiasında idi. Lakin Rusiyanın planı daha məkrli və daha təhlükəli idi. Rusiya hər vasitə ilə çalışırdı ki, Azərbaycanı Denikinlə üz-üzə qoysun, Denikini Azərbaycanı işğal etməyə təhrik etsin, vuruşan tərəflər zəiflədikdə Azərbaycanı zəbt etsin.

Rusiyanın Azərbaycana qarşı təcavüzkar siyasətini müzakirə edən milli hökumət şimal sərhədlərini möhkəmləndirmək barədə tədbirlər görməyə başladı, Gürcüstanla 1919-cu ilin iyun ayının 27-də bağladığı hərbi müdafiə müqaviləsinə əsasən Azərbaycan bu ölkə ilə əlaqələri daha da gücləndirdi. ADR hökuməti Rusiyanın məkrli planlarına münasibətdə cəsarətli mövqe tutdu, ona qarşı fəal diplomatik müqavimət göstərmək mövqeyini seçdi, ABŞ-ın, Fransanın, İngiltərənin dəstəyinə bel bağladı.

O dövrdə yaranmış gərgin beynəlxalq vəziyyət şəraitində böyük dövlətlər Azərbaycana gərəkli dəstək göstərə bilmədilər. Bunu aydın görən Rusiya ekspansionizm və böyük dövlətçilik şovinizm siyasətini daha gücləndirir, tarixən rusların öz ərazilərini genişləndirmək planını həyata keçirməyə çalışırdı. Q.K.Orconikidze Lenindən aldığı tapşırığa əsasən Qafqaz cəbhəsi komandanı M.N.Tuxaçevski, hərbi inqilab şurasının üzvü S.M.Kirov, ordu komandanı M.K.Levandovski ilə birlikdə Bakının zəbt edilməsi planını işləyib hazırladı, Bakının tutulması haqqında aprel ayının 21-də XI Qızıl Orduya ciddi sərəncam verdi (7).

M.Ə.Rəsulzadə yazmışdı: "27 aprel faciəsi ilə Azərbaycan ikinci dəfə olaraq rus ordusunun yeni Sisiyanovu olan Orconikidzenin idarəsi altına girirdi. Nəticə hər iki halda eyni idi. Nikolay Rusiyası ilə Lenin Rusiyası arasındakı fərq bundadır ki, o zaman cahangirlik siyasəti başçısının adı Nikolay, indi cahangirlik siyasəti başçısının adı isə Lenindir. O zamankı zəncirlərin rəngi qara, indiki zəncirlərin rəngi isə qırmızıdır" (16).

Rusiyanın təzyiqi altında bu əzəli Azərbaycan torpağının Ermənistana verilməsi istiqamətində atılmış məkrli addımlar 4505 kvadratkilometrlik bir ərazinin həmişəlik itirilməsi ilə nəticələndi.

Vaxtilə Zəngəzurdan qovulmuş 50 mindən çox azərbaycanlı qaçqının yalnız 5 min nəfəri öz vətəninə dönməyə nail olmuşdu. 1917-ci ildə Zəngəzur qəzasında 123085 nəfər təşkil edən

azərbaycanlıların 1926-cı il siyahıyaalınma göstəricilərinə görə sayı heç 5 minə belə çatmamışdı. 1918-ci il mayın 29-da 9 min kvadrat kilometrlik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti sonradan digər ərazilərin işğalına başladı: 1920-ci ilin dekabrından başlayaraq 10 il ərzində Moskvanın birbaşa köməyi ilə Zəngəzur qəzasından 405.000 desyatin (4414,5 km2), Qazax qəzasından 535096 desyatin (5832,82 km2) , Naxçıvan MSSR-dən 657 km2, Cəbrayıl qəzasından Nüvədi, Eynəzir və Tuğut kəndlərini əhatə edən Azərbaycan torpaqları Ermənistan ərazisinə qatıldı. Sovet rejiminin sonrakı illərində də Ermənistan ərazisi Azərbaycan torpaqları hesabına daha da genişləndirildi və 29,743 km2-ə çatdırıldı (4).

1988-ci ildən başlayaraq Moskva və Qərbin bir çox dövlətlərinin fəal siyasi, mənəvi, hərbi dəstəyi ilə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətini, vilayətdən kənarda əlavə 7 rayonu, dövlət sərhədləri boyunca yerləşən bir çox ərazilərini işğal etdi. Mülki əhalinin kütləvi qətliamları, talan, qarətləri ilə müşayiət olunan bu proses əvvəlcə Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin zor gücünə deportasiyasından başlandı, ilk qaçqın dalğası yenə də 1987-ci il fevral ayının sonu-martın əvvəllərində Zəngəzurdan başlamışdı.

1992-93-cü illərdə 7.892 kv.km ərazini əhatə edən tarixi Zəngəzur bölgəsinin və Dağlıq Qarabağın ətraf bölgələrlə birlikdə işğalına Rusiya ilə yanaşı, ABŞ, Böyük Britaniya, Fransa da dəstək vermişdir və ikili standartları, xristian təəssübkeşliyini dövlət siyasətinə çevirmiş bu böyük güclər BMT qətnamələrinə də əhəmiyyət vermədən Ermənistanın 24 ildən bəri davam edən Azərbaycan torpaqlarını işğalı faktının aradan qaldırılmasında prinsipsizlik göstərməkdədir.

ƏDƏBİYYAT

1. ARDA, f.894, s.4, iş 19, v.129

2. ARDA, f.970, s.1, iş 113.

3. Azərbaycan xalqına qarşı 1918- ci il soyqırımı. Sənədlər toplusu. 3 cilddə, II cild, I kitab. Gəncə quberniyasında soyqırımı. 1917-1920-ci illər, Bakı, Tarix İnstitutunun nəşri, 2011

4. Kamran İSMAYILOV. Azərbaycan qəzeti, Zəngəzur bölgəsində azərbaycanlıların soyqırımı, 03 Aprel 2015

5. Nağı Keykurin "Nağı Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri". Bakı 2007, s.67-68

6. Nəbibəyli Z. Sultan bəy və Xosrov bəy qardaşları, Nurlar, Bakı 2011, s.66-67

7. Nərimanoğlu H. Azərbaycanın Zəngəzur mahalının Ermənistana verilməsi prosesi 27-09-2015, http://karabakhmedia.az/

8. Nərimanoğlu H, Ermənilərin Zəngəzur və Qarabağda törətdikləri qırğınlar Osmanlı-Türkiyə arxivlərində. QHT nəşriyyatı 2014, səh.65-66

9. Nərimanoğlu H . Erməni xisləti, Azərbaycan qəzeti, 31 mart 2012

10. Nərimanoğlu H. Zəngəzur (tarixi oçerk) www.zengezur.com, 12.09.2014

11. Paşayev A. İngilis jurnalisti Skotland Liddell erməni məkri haqqında. // Xalq qəzeti, - 2010, 12 mart, - № 56, s. 6.

12. Solmaz RÜSTƏMOVA-TOHİDİ, Azərbaycan qəzeti, Azərbaycan Parlamenti necə yarandı, 07 Dekabr 2013

13. SSRİ-də vətəndaş müharibəsi tarixi, 1922, c-3, səh 333

14. Şərq xalqları jurnalı . 1926.N.1, səh-49

15. http://www.uludil.gen.az/adr/021.php

16. http://www.resulzade.org /1059.php

RASİM ABBASOV
Əmək və Sosial Problemlər üzrə ETTM

AZƏRBAYCANDA DEMOQRAFİK VƏZİYYƏT NƏZƏRƏ ALINMAQLA İDXALIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN QANUNVERİCİLİK BAZASININ GÜCLƏNDİRİLMƏSİ VƏ PRİORİTET İSTİQAMƏTLƏRİ

Müasir dövrdə ölkəmizdə sosial-iqtisadi inkişafın yeni mərhələləri və yeni meyarları formalaşmaqdadır. Dünya iqtisadi proseslərinin transformasiyası və ciddi təsirlərə məruz qaldığı bir şəraitdə demoqrafik vəziyyətin sabit saxlanılması və bununla bağlı problemlərin dərindən öyrənilərək tənzimlənməsi dövlətin qarşısında duran strateji vəzifələr kimi xarakterizə olunurlar. Bununla əlaqədar olaraq ölkəmizdə demoqrafik vəziyyətin idxalın dövlət tənzimlənməsinə təsirinin təkmilləşdirilməsinin təmin edilməsi vacib məsələlərdəndir. Professor A.Şəkərəliyev qeyd edir ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı potensialının tam reallaşmasına yönəlmiş tədbirlərin kompleks şəkildə həyata keçirilməsi, idxalı əvəzetmə inkişaf strategiyalarının effektiv sintezinə imkan verən müvafiq iqtisadi mexanizmlərin işlənməsi və realizasiyası əsasında mümükündür[1]. Ölkəmizin qeyri-neft sektorunun inkişafı baxımından idxal əvəzedici sahələrin təşkili mühüm əhəmiyyət kəsb edir. Bu potensialdan zəif istifadə edilməsi bir çox sənaye məhsullarının, xüsusilə yüngül sənaye məhsullarının kütləvi idxalını məcburi etmişdir. Məsələnin mahiyyəti təkcə yüngül sənaye mallarının təminatı sahəsində idxaldan asılılıqdan getmir, bu həm də mühüm sosial-iqtisadi problemdir. Belə ki, ölkə əhalisinin yüngül sənaye mallarına olan tələbatının əksər hissəsinin daxildə istehsalının təşkili və bununla əlaqədar olaraq çoxlu sayda istehsal müəssisələrinin və şəbəkəsinin yaradılması, yeni iş yerlərinin təşkilinə real imkanların əldə edilməsi, iqtisadi cəhətdən fəal əhalinin potensialından səmərəli istifadə olunması, işsizlik səviyyəsinin aşağı salınması, insan resurslarının realizə edilməsi, onların bacarıq və intellektini nümayiş etdirmələrinə müvafiq şəraitin yaradılması, gənc ailələrin formalaşmasına maddi dəstəyin gücləndirilməsi və mənəvi mühitin təşkili, yeniyetmələrin sağlam ruhda böyüməsi üçün əlavə tədbirlərin görülməsinə resursların yaranması və s. mümkün olardı. Demoqrafik proseslər cəmiyyətə və milli iqtisadiyyatın inkişafına əsaslı təsir göstərmək imkanına malikdir. Bu halda həmin proseslərin tənzimlənməsi obyektiv zərurət kimi çıxış edir. Məsələn, tədqiqatçı V.Quliyev qeyd edir ki, ölkə əhalisinin gəlirlərinin diferensiallaşmasının yumşaldılması, yoxsulluğun azaldılması, sosial sferada islahatların hüquqi təminatı, yoxsulluğun azaldılmasının təkmilləşdirilməsi, bunlarla bağlı dövlət proqramlarının həyata keçirilməsi zamanı sosial qeyri-bərabərliyin azaldılması sahəsində daha əsaslandırılmış, planlaşdırma-idarəetmə qərarlarının qəbul etməsi və hüquqi tənzimlənmənin təkmilləşdirilməsi təmin edilməlidir[2]. Əhalinin narahatçılığına səbəb olan problemlərin içərisində sosial qeyri-bərabərliklə bağlı məsələlər daha genişdir və bütün bunlar demoqrafik proseslərin gərginləşməsinə gətirib çıxarır. Buna görə də ölkədə demoqrafik vəziyyətin sabitləşdirilməsi məqsədilə iqtisadiyyat sahələrinin və cəmiyyətin davamlı, həm də tarazlı inkişafı təmin olunmalıdır. Tədqiqatçı Azərbaycanın E. Emir-İlyasova dünya iqtisadiyyatına inteqrasiya şəraitində Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin səmərəliliyini araşdırarkən qeyd etmişdir ki, dövlətin iqtisadi siyasətində ayrı-ayrı qeyri-neft sektoru sahələrinin inkişafı sürətləndirilməli, onların ixrac potensialı artırılmalı və idxaləvəzedici iqtisadiyyat sahələrinin genişləndirilməsi stimullaşdırılmalı, bununla bağlı məsələlər qanunvericilik aktları ilə daha əhatəli baxılmalı, valyuta və gömrük tənzimlənməsi, həmçinin idxal mallarının ölkənin və ayrı-ayrılıqda milli istehsalçıların maraqlarına uyğun olaraq lisenziyalaşdırılması, tarif siyasəti vasitəsilə idxalın tənzimlənməsi həyata keçirilməlidir[3]. İdxalın tənzimlənməsi vasitəsilə ölkədəki proseslərə bu və ya digər formada təsir göstərmək imkanı yaradıla bilər və demoqrafik vəziyyətlə bağlı ortaya çıxan məsələlərdə xarici iqtisadi amillər də az əhəmiyyət kəsb etmir. Bunlara diqqət yetirən tədqiqatçı F.Qənbərov qeyd edir ki, qloballaşma şəraitində idxal-ixrac əməliyyatlarının prosedur qaydaları sadələşdirilməli, şəffaflıq təmin edilməli, bunlarla əlaqədər planlaşdırılmayan xərclər azaldılmalı və sonda malların qiymətinin aşağı düşməsi təmin olunmalı, müxtəlif əhali təbəqələrinin, o cümlədən nisbətən kasıb əhali təbəqələrinin maraqları qorunmalı, arzuolunmaz demoqrafik problemlərə gətirib çıxaran halların qarşısı alınmalıdır. İdxal rüsumlarının azaldılması yolu ilə milli bazarda rəqabətqabiliyyətlilik artırılmalı, yerli istehlakçılar daha ucuz və keyfiyyətsiz mallar imkanı qazanılmalıdır, əhalinin tələbatı dolğun ödənilməlidir və bu istiqamətlərdə idxaləvəzedici fəaliyyət sahələri təşkil olunmalıdır[4,s.34]. Bu məsələlər eyni zamanda işçi qüvvələrinin məhsuldar yerləşdirilməsi, əmək

bazarının və demoqrafik vəziyyətin tənzimlənməsi, məşğulluğun gücləndirilməsi üçündə vacib hesab olunur. Bu baxımdan əmək resurslarından və əmək ehtiyatlarından daha səmərəli istifadənin təşkili, bunlarla bağlı ölkədəki demoqrafik vəziyyətdən doğan reallıqların obyektiv qiymətləndirilməsi, qanunvericilik aktlarının təkmilləşdirilməsi əhəmiyyətli məsələlər kimi diqqət çəkir[5;6].

Qeyd edək ki, Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 24 iyun 1997-ci il tarixli Fərmanı qüvvəyə minmişdir[7]. Bu fərmanla ölkəmizdə xarici iqtisadi əlaqələrin, xüsusilə ticarət əlaqələrinin liberallaşdırılması, bu işlərin genişləndirilməsi, bu sahədə bazar iqtisadiyyatı tələblərinə cavab verən müasir qaydaların müəyyən edilməsi məqsədilə idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları təsdiq edilmişdir[8]. Bununla da ölkəmizdə idxalın daha səmərəli təşkili üçün qanunvericilik bazası gücləndirilmişdir və bu qanuna əsasən milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin, xüsusilə qeyri-neft sektoru sahələrinin, o cümlədən kənd təsərrüfatı və aqrar sənaye müəssisələrinin inkişafının gücləndirilməsi üçün əlavə mexanizmlər və iqtisadi alətlər formalaşdırılmış, regionlarda əhalinin iqtisadi fəallığının artırılması, sosial-iqtisadi problemlərin həll edilməsi, demoqrafik vəziyyətə mənfi təsir edən ayrı-ayrı sosial-iqtisadi amillərin öyrənilməsi, nəzərə alınması, onlara adekvat tədbirlərin görülməsi işləri genişləndirilmişdir. İdxal əməliyyatlarının daha effektiv təşkili regionlarda fermer təsərrüfatlarının və aqrosənaye təyinatlı müəssisələr şəbəkəsinin yaradılmasını stimullaşdırmış və kənd rayonlarında əhalinin məskunlaşması, əhalinin təkrar istehsalı proseslərinə müsbət təsir göstərmişdir. Ölkə Prezidentinin 2 avqust 2006-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması üzrə Tədbirlər Planı təsdiq edilmişdir[9]. Qeyd edək ki, hazırda bu tədbirlərin əksəriyyəti reallaşdırılmış və ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv qəbul edilməsi üçün maneələr əsasən aradan qaldırılmışdır. Sonradan bu sahədə aparılmış tədbirlərin daha da gücləndirilməsini təmin etmək üçün ölkə Prezidentinin 14 may 2010-cu il tarixli fərmanı ilə ölkəmizdə idxal əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər müəyyənləşdirilmişdir[10]. Bu qaydaların təkmilləşdirilməsi prosesləri intensivləşdikcə, ölkəmizdə idxal siyasətinin müasir dövrün tələblərinə, həmçinin ölkədaxili demoqrafik proseslər və iqtisadi amillərin təsirinə adekvat tənzimləməsi zərurəti yaranır. Bu hallar əsas götürülməklə, 2013-cü il 13 iyun tarixli "Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu" qüvvəyə minmişdir [11]. Bu qanunla ölkəmizdə gömrük tarifinin formalaşması və tətbiqi, həmçinin

ölkəmizin gömrük sərhədindən keçirilən mallardan gömrük rüsumlarının tutulması qaydaları tənzimlənir. Bu kimi tədbirlərin həyata keçirilməsi və ölkəmizin sosial-iqtisadi siyasəti, milli maraqları və digər amillər nəzərə alınmaqla müəyyənləşdirilən tarif-gömrük mexanizmləri, idxalın tənzimləmə alətləri bu sahədə zəruri addımları atmağa və tələb olunan işləri reallaşdırmağa imkan verə bilər.

Qeyd edək ki, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, səmərəli dövlət tənzimlənməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşmasına, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulmasına, əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələrə, müasir təhsil sisteminin formalaşdırılmasına, gender bərabərliyinin təmin olunması və ailənin inkişafına, gənclərin potensialının və idmanın inkişafının təmin edilməsinə ciddi önəm verilmişdir[12]. Azərbaycanın ərzaq təhlükəsizliyi, regionların inkişafı, məşğulluq və yoxsulluğun ixtisarı nöqteyi- nəzərindən əhəmiyyət kəsb edən aqrar sektorun inkişafı dövlətin diqqət mərkəzindədir. Dövlət tərəfindən verilən güzəştli kreditlər, subsidiyalar, meliorasiya və irriqasiya işləri və regional infrastrukturun təkmilləşdirilməsi kənd təsərrüfatının inkişafını sürətləndirmişdir. Azərbaycan dövlətinin apardığı diversifikasiya siyasətinin əsas istiqamətlərindən biri də, ölkə daxilində regional balansın yaranması, və coğrafi tarazlığın qorunmasıdır[13]. Bununla belə, regionlarda qeyri- neft ixracı məhsullarının istehsalı şəbəkəsinin genişləndirilməsi və nəticədə idxalın həcminin azaldılması hesabına əhalinin maddi rifahının yaxşılaşdırılası və demoqrafik vəziyyətin balanslaşdırılması daha çox mümükün olardı. Bu qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasında demoqrafik vəziyyətin qanunvericilik bazasının gücləndirilməsi və idxalın dövlət tənzimlənməsinə təsirinin təkmilləşdirilməsi yollarını ümumiləşdirmək mümkündür:

-idxalın strukturunun təkmilləşdirilməsi, demoqrafik proseslərin təsirindən formalaşan amillər baxılmaqla idxal siyasətinin yenilənməsi və bunlarla bağlı qanunvericilik bazasının gücləndirilməsi həyata keçirilməlidir;

-müxtəlif mal qruplarının ölkəyə gətirilməsinin məhdudlaşdırılması, əvəzində isə idxaləvəzedici istehsal və fəaliyyət sahələrinin təşkili yolu ilə demoqrafik vəziyyətin yaxşılaşdırılması üçün əlavə tədbirlərin görülməsinin hüquqi bazasının formalaşdırılması təmin olunmalıdır;

-ölkədə demoqrafik vəziyyətin idxalın dövlət tənzimlənməsinə təsirinin kompleks baxılması, bunlarla bağlı zəruri tədbirlərin görülməsi, tənzimlənmə mexanizmlərinin hazırlanması, bu mexanizmlərin təkmilləşdirilməsinin təmin edilməsi, idxaləvəzedici yüksək standartlara cavab verən istehsal, kənd təsərrüfatı, aqrosənaye, xidmət təsərrüfatları şəbəkəsinin yaradılması, əmək ehtiyatlarından və insan resurslarından maksimum səmərəli istifadənin təmin edilməsi, demoqrafik vəziyyətin tarazlaşdırılması və sabit saxlanılması üçün yeni resurs potensialının formalaşması məqsədilə, on illik bir dövrü əhatə edən "Azərbaycan Respublikasının demoqrafik vəziyyətinin idxalın dövlət tənzimlənməsinə təsirinin təkmilləşdirilməsi tədbirləri Dövlət Proqramı"nın hazırlanması və həyata keçirilməsi məqsədəuyğun hesab edilir və s.

ƏDƏBİYYAT

1. *Şəkərəliyev A.Ş.Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Günaskam. http://www.gunaskam.com.*

2. *Quliyev V.M. Azərbaycan Respublikasında yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasının hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi. İ.ü.f.d. dissertasiyasının Avtoreferatı. Bakı, 2013. -27 s.*

3. *Эмир-Ильясова Э.И. Внешнеэкономические связи Азербайджанской Республики в условиях интеграции в мировую экономику. Автореферат дисс. д-ра экон. наук. Баку, 2013. -48 с.*

